# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 58 (3382) Cümə axşamı / 10-11 iyun 2021-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Zəngəzur dəhlizi açılmasa...



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq baş diplomatı, politoloq

***Azərbaycanın sabiq baş diplomatı, politoloq Tofiq Zülfüqarov hafta.az-a növbəti müsahibəsində "Putinin dostu" sayılan Ermənistanın terrorçu eks-prezidenti Robert Köçəryanın seçkilərdə favoritlik iddiasında olmasına Rusiya hakimiyyətinin gerçək münasibəti, onun hakimiyyətə gələcəyi təqdirdə işğalçı ölkənin hansı duruma düşəcəyi, Paşinyanın hakimiyyətdə qalacağı halda 10 Noyabr üçtərəfli razılaşmasının yarımçıq qalmış müddəalarının həyata keçirilib-keçirilməməsi və s. haqda danışıb.***

*Nəticədə ermənilər, artıq gerçəklikləri qəbul etmək məcburiyyətində qalacaqlar*

Səh. 2

SORĞU



## Nə etməli?!

■ Rusiya sülhməramlıları vəziyyəti stabilləşdirmək əvəzinə daha da gərginləşdirirlər...

■ Biz hansı ərazidə diqqətsiz olsaq, düşmən ora mina basdıra bilər...

■ Ermənilər Laçın koridorundan öz istədikləri kimi istifadə edir...

Səh. 5

# "Mən Şuşaya gedəcəyəm"




***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad olunmuş Şuşaya səfər edəcək. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) qrup iclasında çıxışı zamanı bildirib. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşəcəyini vurğulayan Türkiyə dövlət başçısı səfər çərçivəsində rəsmi görüşlər və ziyarətlər keçirəcəyini bildirib. Türkiyə Prezidenti qeyd edib ki, Azərbaycanın işğal altındakı torpaqlarının azad olunması başda Ermənistan olmaqla, regiondakı bütün tərəflərə yeni şans verib. "AVRO-2020-nin Türkiyə-Uels matçını Azərbaycanda izləyəcəyəm", - Türkiyə Prezidenti bildirib. O qeyd edib ki, Türkiyə-Uels matçını Azərbaycan Prezidenti İlham Əliyevlə birgə izləyəcək. "Proqramımızı belə tərtib etdik", - deyə Türkiyənin dövlət başçısı qeyd edib. "Bu gün dünyada ölkəmizə iftira atan, Türkiyəni günahkar çıxarmağa çalışanların arxasında 3-4 terror təşkilatının olduğunu görürük". Ərdoğan AKP-nin qrup iclasında çıxışı zamanı deyib. Ərdoğan bildirib ki, bunlardan biri də separatçı PKK terror təşkilatı, bu təşkilatın törəmələri və FETO-çulardı: "Ölkəmizə qarşı ararılan böhtan kampaniyalarına keçmişdən bəri Avropada əli qana bulaşan erməni terror təşkilatları qoşulublar. Təbii ki, bəzi siyasətçilərimiz də bu siyahıda yer alır. Bu millət düşmənlərinin terror təşkilatları, mütəşəkkil cinayətkar dəstələrlə əlbir olmalarına, əlbəttə, təəssüf edirik. Bütün bunlar əsasən eyni mənbədən bəslənilir". Türkiyə Prezidenti deyib ki, bütün bu məsələlər xalqla birlikdə müzakirə olunacaq və mübarizə tədbirləri davam etdiriləcək.***

Regionun maraqlı dairələri Türkiyə başqanının Azərbaycana səfəri ətrafında müxtəlif mülahizələr irəli sürür. O cümlədən Rusiya sülhməramlıları tərəfindən birmənalı olmayan məqamlar önə çəkilir. İddialara görə, artıq 200 nəfər rus sülhməramlısı Şuşada yerləşdirilib və bu, Türkiyənin regiona gəlişinin qarşısında bir qalxan kimi təqdim olunur. Türkiyə cümhur başqanının Azərbaycana səfəri bu şəkildə siyasi və hərbi rakusdan hədəfə alınaraq, birmənalı qarşılanmır.

■ **Vəziyyəti hafta.az-a şərh edən politoloq Elxan Şahinoğlu erməni saytlarında gedən bu xəbərlərin təxribat xarakteri daşıdığını istisna etməyib. Onun sözlərinə görə, rus sülhməramlıları gedib Şuşada yerləşə bilməzlər.**

"Nəzərə alınmalıdır ki, Şuşaya Türkiyənin başqanı gəlir və Azərbaycan öz üzərinə düşən gedişləri edəcək. Məlumdur ki, Şuşanın aşağı hissəsində, yəni Xankəndi ətrafında yaşayan ermənilər təxribat törədir, minalar basdırır, partlayışlar baş verir. Vətəndaşlarımız həlak olurlar. Ola bilsin ki, bu məsələlər ruslarla da müzakirə olunub və tapşırılıb ki, erməniləri təxribatlardan çəkindirsinlər. Hesab edirəm, rus hərbçiləri R.T.Ərdoğanın gəlişi ilə bağlı fəallaşacaqsa, ancaq dediyim həmin ərazilərdə ola bilər və yollarda nəzarəti artıra bilərlər. Əks halda aydındır ki, ruslar Şuşada yerləşdirilə bilməzlər. Şuşa yolunda müəyyən qədər rus hərbçiləri ola bilər. Azərbaycan və Rusiya da gərək Ərdoğanın təhlükəsizliyini təmin etsin. Hər birimiz gördük ki, iyunun 4-də mülki vətəndaşlarımıza qarşı hansı terror hadisəsi baş verdi. Ermənilərdən kimsə təxribat törətməyi ağlına gətirə bilər. Bunun qarşısını Rusiya almalıdır".

Politoloq bildirib ki, belə informasiyaların yayılmasında məqsədlərdən biri də Türkiyə ilə Rusiya arasında narazılıq yaratmaqdır.

Politoloq belə informasiyaların yayılmasının Rusiyanın Türkiyəyə verdiyi "Burada varam" mesajı kimi dəyərləndirilməsi ilə bağlı mülahizələri də birmənalı qarşılamayıb.

"Rusiyanın belə bir mesaja ehtiyacı yoxdur, bu mesajı gəlib Azərbaycanda yerləşməklə artıq veriblər. Ruslar Ərdoğanı nə ilə qorxuda bilər ki? Əksinə, Ərdoğanın Şuşada verəcəyi açıqlamaların bizim üçün böyük əhəmiyyəti var. O, burada açılışlara, təməlqoyma mərasimlərinə qatılacaq. Əslində, bunlar bizim Türkiyə ilə birlikdə Rusiyaya verəcəyimiz mesajlar olacaq.

Ona görə də mən daha çox Rəcəb Tayyib Ərdoğanın səfərinə və Şuşada verəcəyi açıqlamalara əhəmiyyət verirəm. Yəqin ki, bu mesajlar həm Rusiyaya, həm də Ermənistana aid olacaq. Ermənilərə mesaj da ola bilər ki, əgər özünüzü adam kimi aparsanız sizinlə də əməkdaşlıqlar qurulacaq. Digər bir mesaj da o olacaq ki, Türkiyə artıq nəinki Cənubi Qafqazda, Azərbaycanda, Qarabağda da yerləşib".

*Ərdoğanın Şuşada verəcəyi açıqlamaların bizim üçün böyük əhəmiyyəti var*

GÜNÜN FOTOSU...



**Bakını gəzən amerikalı diplomat Filip Rikeri təndir çörəyinə qonaq etdilər...**

GÜNÜN SİTATI



*"Əgər biz belə bir həyatı təmin edə bilsək, onda bir neçə ildən sonra statusla bağlı bütün problemləri həll etmək daha asan olacaq"*

**Sergey Lavrov,**
Rusiyanın xarici işlər naziri

KARİKATURA




**Erməni səngərilə ayrılan doğma məzarlar...**

## COVID pasportu müəmması

**Adil Qeybulla,**
tibb elmləri doktoru, professor

Antitellərin yoxlanılması əsasında COVID pasportunun verilməsi daha məqbul olar.

Səh. 3

STATİSTİKA



**2020-2021-ci tədris ili üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlərin orta aylıq əmək haqqı 702 manat təşkil edir.**

İdarədən hafta.az-a verilən məlumata görə, cari dərs ilində BŞTİ-nin tabeliyindəki məktəblərdə 456 076 şagirdin təlim-tərbiyəsi ilə 28 167 müəllim məşğul olur.



Səh. 6

## Dünyada iddialı güc

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev "Xaçmaz, Quba, Qusar və Şabran rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının əhalisi 17346 nəfər olan 13 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 13 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 910,0 (doqquz yüz on) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Rusiya və Türkiyə Qarabağı müzakirə ediblər



**Rusiya və Türkiyə Xarici İşlər Nazirliklərinin (XİN) məsləhətləşmələrində Qarabağdakı vəziyyət müzakirə olunub Hafta.az bu barədə Rusiya XİN-ə istinadən xəbər verir.**

Məlumata görə, müzakirələr zamanı atəşkəsə və bütün hərbi əməliyyatlara nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətinə yüksək qiymət verilib. Rusiya XİN-in açıqlamasında deyilir ki, Cənubi Qafqazdakı iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılması üzərində işlərin davam etdirilməsi barədə razılığa gəlinib.

# Şəhid jurnalistlərin xatirəsi əbədiləşdirildi



**Kəlbəcərdə mina partlaması nəticəsində şəhid olan AzTV-nin operatoru Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun xatirəsi əbədiləşdirilib. Bu barədə AzTV-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.**

Bildirilib ki, onların adları "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin ərazisində milli mətbuatımızın şəhidlərinin xatirəsinə yaradılmış memorial abidə kompleksinin anım lövhəsinə həkk olunub. Qeyd edək ki, iyunun 4-də xidməti vəzifələrini yerinə yetirmək üçün işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş telekanal və informasiya agentlikləri əməkdaşlarını aparan "KamAZ" markalı sərnişin avtomobilinin Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşməsi nəticəsində üç nəfər - AzTV telekanalının operatoru Sirac Abışov, AZƏRTAC İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev şəhid olub.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Zəngəzur dəhlizi açılmasa...

## Müsahib

***Azərbaycanın sabiq baş diplomatı, politoloq Tofiq Zülfüqarov hafta.az-a növbəti müsahibəsində "Putinin dostu" sayılan Ermənistanın terrorçu eks-prezidenti Robert Köçəryanın seçkilərdə favoritlik iddiasında olmasına Rusiya hakimiyyətinin gerçək münasibəti, onun hakimiyyətə gələcəyi təqdirdə işğalçı ölkənin hansı duruma düşəcəyi, Paşinyanın hakimiyyətdə qalacağı halda 10 Noyabr üçtərəfli razılaşmasının yarımçıq qalmış müddəalarının həyata keçirilib-keçirilməməsi və s. haqda danışıb.***



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq
baş diplomatı, politoloq

Keçmiş xarici işlər naziri eyni zamanda Putin-Bayden və Ərdoğan-Bayden görüşləri, Ərdoğanın Bakı və Şuşa səfərləri və s. gözlənilən mühüm siyasi olayların Azərbaycanın regiondakı durumuna göstərəcəyi təsirlə bağlı proqnozlarını da verib.

***- Tofiq müəllim, bu günlərdə Rusiya prezidenti Putinin Ermənistan liderliyinə can atan Robert Köçəryanla, artıq bu il ərzində 3-cü telefon danışığı baş tutub. Belə təssürat yaranır ki, bu qəsbkar ölkədə proseslərə nəzarət edən şəxs məhz Köçəryandır və Putin də Paşinyanla deyil, onunla məsləhətləşir, Ermənistanın gələcəyini onda görür. Köçəryanın son dövrlərdə "Putinin dostu" imicini qazanmasını da nəzərə alsaq, belə çıxır ki, Kreml bir həftədən sonrakı seçkilərdə elə Köçəryana dəstək verəcək. Siz necə düşünürsünüz?***

- Birincisi, onu qeyd etmək lazımdır ki, digər siyasi "dostluq"lar kimi, Putin-Köçəryan "dostluğu" da daha çox siyasi maraqlar üzərində qurulub. Bir müddət var idi ki, heç Köçəryan Putinin yadına da düşmürdü. Odur ki, buna heç vaxt etibarlı dostluq demək olmaz. Düzdür, əslinə qalsa, Robert Köçəryan siyasi fəaliyyətinin əvvəlindən Rusiya tərəfindən dəstəklənən bir fiqurdur. İndiki halda Ermənistandakı seçkiqabağı kampaniyada Paşinyana qarşı əsas rəqabəti də məhz Köçəryan formalaşdırır. Bu baxımdan həmin dəstək, bu telefon danışıqları Rusiyameyilli qüvvələrə dəstək kimi dəyərləndirilməlidir. Bu məsələnin zəif bir elementi də var. Ermənistandakı hazırkı siyasi mühit onu göstərir ki, gərginlik daha çox yerli ermənilər və Qarabağ erməniləri arasında mövcuddur. Köçəryan da "Qarabağ klanı" deyilən toplumu təmsil edir. Yəni bu baxımdan inanmıram ki, Rusiya belə səhv edərək seçkilərdə Köçəryana birbaşa dəstək verəcək. Bu, daha çox dəstək imitasiyasına bənzəyir. İkinci Qarabağ savaşından bəri keçən dövrdə də dəfələrlə müşahidə etmişik ki, Paşinyanın problemləri olanda məhz Rusiya tərəfindən ona dəstək verilib. Bu mənada, yəqin ki, Kremlin həm Paşinyanla, həm də Köçəryanla gözə görünməyən, pərdə arxası əlaqələri mövcuddur... Əsas məsələ yenə də gündəmdə qalmaqdadır: Ermənistan gələcəkdə hansı siyasəti həyata keçirəcək? Biz başa düşürük ki, rəsmi İrəvanın qərbyönümlü siyasət aparması qaçılmazdır. Rusiyanın son 30 ildə bu işğalçı ölkəyə verdiyi dəstəyin onun inkişafına gətirib çıxarmadığı göz qabağındadır. Əksinə, Ermənistanda digər problemlərlə yanaşı, demoqrafik problem də daha da güclənməkdədir. Odur ki, ermənilər yaxşı bilir ki, Ermənistanın bir dövlət kimi mövcudluğu və xilası ilk növbədə Qərblə bağlıdır. İkincisi də biz anlamalıyıq ki, indiki mərhələdə bu ölkə Rusiya üçün artıq bir yükdür. Hələ son müharibədən öncə Rusiyanın ən yüksək səviyyələrindən səslənən "qulpsuz çemodan" bənzətməsi hazırkı məğlub Ermənistan üçün daha da aktuallaşıb. Yəni bu ölkənin varlığının Rusiya üçün heç bir faydası yoxdur. Düzdür, ideoloji təbliğat baxımından, sadəcə, Ermənistanı öz orbitində saxlamaq üçün Moskva tərəfindən bəzi gedişlər davam etdiriləcək. Real istəklər çoxdan bəllidir: Kreml bu "qulpsuz çemodan"dan da azad olmağa çalışır. Bu prizmadan baxanda Köçəryanın telefon danışıqları, yaxud Paşinyanın Avropaya üz tutması daha çox üzdə olan hadisələrdir. Dediyimiz tendensiya, yəni Ermənistanın varlığının Qərbə bağlı olması qaçılmazdır...

***- O da var ki, hazırda Paşinyanı Ermənistan cəmiyyətinə "Qarabağı satmış bir milli xəyanətkar" olaraq təqdim edən Köçəryan hakimiyyətə qayıdacağı halda Qarabağ məsələsində revanşist mövqe tutmalı və dəməli, "dostu" Putinin də qarant duraraq imzaladığı 10 Noyabr razılaşmasından açıq-aşkar imtina etməlidir. O, belə addımlar ata bilərmi?***

- Bilirsiniz, həm Qərb, həm də Rusiya 10 Noyabr razılaşmasını dəstəkləyir. Bu baxımdan ona açıq şəkildə zidd gedən siyasətçi elə öncədən məğlub olmuş olacaq. Yadınızdadırsa, Putin razılaşmadan az sonra dedi ki, bu sənəddən imtina etmək Ermənistanın intiharına bərabərdir. Odur ki, görürük ki, Ermənistanda revanş mövzusu artıq aktual deyil. Əgər Köçəryanın hakimiyyətə gəlməsi alınarsa, Rusiya üçün Ermənistanın "qulpsuz çemodan" kimi "daşınması" siyasəti davam etməlidir. Birmənalı olaraq Moskva bu qəsbkar dövləti, həm maliyyə, həm hərbi, həm siyasi cəhətdən dəstəkləməlidir. Rusiya bunu istəyirmi, Rusiya siyasi elitası bunu istəyirmi? Hesab edirəm ki, yox. Odur ki, Köçəryan qalib gəlsə belə, hakimiyyətdə uzun müddət duruş gətirə bilməz. O, erməni cəmiyyətinə nə açıq şəkildə revanş təklif edə bilər, nə də Rusiya ilə bir yerdə Ermənistanı böhrandan çıxara bilər. Ona görə də inanmıram ki, Köçəryan kimi və ona bənzər mövqedə duran erməni siyasətçiləri seçkilərdə qalib gələcəklər...

***- Bəs Paşinyan hakimiyyətdə qalacağı təqdirdə 10 Noyabr razılaşmasının müddəalarının sonadək həyata keçirilməsini təmin edəcəkmi və ya bunları etməyə ona imkan veriləcəkmi, sizcə?***

- Hesab edirəm ki, 10 Noyabr razılaşmasının həyata keçirilməmiş əsasən bir bəndi qalıb: Zəngəzur dəhlizinin bərpası. Digər yarımçıq icra olunmuş maddə isə erməni ordusunun keçmiş Dağlıq Qarabağ ərazisindəki az sayda qalıqlarının çıxarılmasıdır. Bir də Ermənistanla sərhədlərin demilitasiya və demarkasiyası... Bunların həyata keçirilməsi, zənnimcə, Paşinyan üçün o qədər də problem yaratmayacaq...

> "
>
> *Ərdoğanın Şuşaya gəlişi əsas dönüş faktorlarından olacaq*
>
> *Nəticədə ermənilər, artıq gerçəklikləri qəbul etmək məcburiyyətində qalacaqlar*
>
> *Regionda real vasitəçi xarici qurum Türkiyə-Rusiya tandemidir*

***- Bəzi məlumatlara görə, hazırda Yuxarı Qarabağın nəzarətimizdə olmayan hissələrində bəlkə də 10 mindən çox erməni hərbçisi var?***

- İnanmıram ki, Qarabağda bu sayda erməni silahlısı qalsın. Bunlar hamısı oradakı qondarma rejimin guya hələ də "müdafiə ordusu"na malik olması haqda görüntü yaratmaq üçün ortalığa atılan rəqəmlərdir. Sadəcə, Azərbaycan Laçın dəhlizindəki sərhəd-keçid məntəqəsində buraxılışın sərtləşdirilməsinə nail olmaqla bu məsələnin həllini tezləşdirə bilər. Eyni zamanda Türkiyə-Rusiya birgə monitorinq mərkəzi bu məsələdə ciddi rol oynamalıdır. Yəni həmin mərkəz PUA-lar vasitəsilə əraziyə nəzarət etməklə toplanan məlumatların təhlilini aparaq Yuxarı Qarabağda nə qədər qanunsuz silahlı qüvvə olduğunu müəyyənləşdirə və onların kimliyini də identifikasiya edə bilərlər. Bundan sonra həm bilavasitə Ermənistan ordusunun Qarabağdakı qalıqları, eyni zamanda oradakı yerli ermənilərdən təşkil olunmuş silahlı qüvvələr tərksilah olunmayacaq. Onların orada qalması, təbii ki, sülhə gətirib çıxarmayacaq...

***- Bir müddət öncəki açıqlamalarınızın birində demişdiniz ki, Ermənistan Zəngəzur dəhlizini açmasa, Azərbaycan da Laçın dəhlizini bağlamalıdır. Yenə həmin fikirdə qalırsınızmı?***

- Bəli, hələ də bu fikirdəyəm. Anlamalıyıq ki, Ermənistandakı bəzi siyasi qüvvələr Zəngəzur dəhlizinin açılmasını nəyə görə qəbul etmir. 10 Noyabr bəyanatından bəlli olur ki, həmin Meğri ərazisindən açılacaq dəhlizə Rusiya sərhədçiləri nəzarət edəcək. Yəni bir növ orada eksterritorial bir ərazi yaradılacaq. Bu, o deməkdir ki, həmin ərazidə Ermənistanın qanunları işləməyəcək. Laçın dəhlizindən fərqli olaraq Zəngəzur dəhlizində Rusiya qüvvələrinin qalma müddəti də göstərilmir. Ermənilər bunlara etiraz edir. Anlayırlar ki, həmin dəhlizdən tranzit yüklərin aparılması onlardan asılı olmayacaq. Onlar bunu da yaxşı başa düşürlər ki, Zəngəzur dəhlizinin açılmasını qəbul etməsələr, bu, Laçın dəhlizinin bağlanmasına təhrik kimi qəbul olunacaq. Bu da onlar üçün çox təhlükəlidir...

***- Tofiq müəllim, bu günlərdə gözlənilən Putin-Bayden və Ərdoğan-Bayden görüşləri, NATO sammiti, böyük "7"lərin sammiti, Ərdoğanın Bakı və Şuşa səfərləri, eləcə də qəsbkar Ermənistandakı seçkilər fonunda Azərbaycanın Yuxarı Qarabağ və Zəngəzur dəhlizi istiqamətindəki fəaliyyətinin gələcəyini necə görürsünüz?***

- Azərbaycan qalib olduğu 44 günlük müharibədən sonra regionda vəziyyət, demək olar ki, stabilləşib. Hazırda hər tərəfin gözləntiləri var. Reallıq daha fərqli mənzərəni formalaşdırır. İstisna etmirəm ki, siz sadaladığınız o hadisələr bu və ya digər şəkildə yeni dövr üçün taktiki və strateji üslubları müəyyənləşdirəcək. Yəni bu baxımdan Ermənistan da öz siyasətində xeyli düzəlişlər etməyə məcbur qalacaq və təbii ki, vasitəçilər də.

Vasitəçilərdən danışarkən, əslinə qalsa, demək olar ki, hamı qəbul edib ki, burada real vasitəçi xarici qurum, sadəcə, Türkiyə-Rusiya tandemidir. İndi də, yaxın gələcəkdə də Minsk qrupu kimi digər qurumların fəaliyyətini ən azı Azərbaycan qəbul etməyəcək. Bu baxımdan, bəhs edilən görüşlərdə kimsə bizim mövzulara toxunsa, gərək bu reallığı nəzərə alsın. İnşAllah, hər şeyi yaşayıb görərik. Hiss olunur ki, regionda Azərbaycanın mövqeyi getdikcə güclənməkdədir. Türkiyə Prezidenti Ərdoğanın tezliklə Şuşaya gəlişi əsas dönüş faktorlarından biri olacaq. Nəticədə ermənilər artıq gerçəklikləri qəbul etmək məcburiyyətində qalacaqlar...

✍ *Sultan Laçın*

# Lavrovdan status açıqlaması

**Azərbaycan-Ermənistan sərhədində baş verənlərin Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur. Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Primakov qiraətləri" forumunda çıxışı zamanı bildirib. "Müharibəni kim aparıb, kim döyüşüb məsələsi bizim üçün və bütün sağlamdüşüncəli insanlar üçün bağlıdır. Qan tökülməsi dayandırılıb. Müharibə tez bitə, sülhə tez nail olunа bilərdi.**

Biz vasitəçi olmuşuq, tərəfləri məcbur edə bilmədik. Əmin edirdik ki, bundan sonra qan tökülməsi mənasızdır və olduqca təhlükəlidir. İndi sülhməramlılarımız öz mandatlarını icra edirlər. Hansısa böyük insidentlər ümumiyyətlə yoxdur. Bunu Bakıda və İrəvanda da etiraf edirlər. Baş verən kiçik məneələr olduqca tez aradan qaldırılır. Bəli, Azərbaycan-Ermənistan sərhədinin ayrı məntəqələrində gərginlik var. Bunun Dağlıq Qarabağla aidiyyəti yoxdur", - deyə S. Lavrov qeyd edib.

Ermənistan və Azərbaycan mehriban qonşular kimi birgə yaşamağı öyrənməlidir - Sergey Lavrov deyib. O bildirib ki, adi insanların həyatını qaydasına salmaq üçün səy göstərmək lazımdır. Eyni zamanda S.Lavrov vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında kommunikasiyaların açılmasında təkcə bu iki ölkə yox, Rusiya, Türkiyə və İran da maraqlıdır, bu ölkələrin fikrini danışıqlar prosesində nəzərə almaq lazımdır. "Dağlıq Qarabağın statusu məsələsini ATƏT-in Minsk qrupunun həmsədrləri ilə razılaşdırmaq vacibdir, ancaq indi onu deyil, dinc sakinlərin regiona qayıtmasını vurğulamaq lazımdır".



**Sergey Lavrov,**
Rusiyanın xarici işlər
naziri

Lavrov "Primakov qiraəti" forumundakı çıxışında bildirib. Onun sözlərinə görə, indiki mərhələdə azərbaycanlılarla ermənilərin yenidən bir yerdə təhlükəsiz yaşamaları və iqtisadi rifahları ilə bağlı məsələlər həll olunur: "Əgər biz belə bir həyatı təmin edə bilsək, onda bir neçə ildən sonra statusla bağlı bütün problemləri həll etmək daha asan olacaq".

Türkiyənin Qarabağda ətəşkəsə nəzarət prosesinə cəlb olunması sabitləşdirici faktordur. Bunu Lavrov bildirib. "Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzi fəaliyyət göstərir. Azərbaycan ərazisində texniki vasitələrdən istifadə olunmaqla yerdə baş verənlərin birgə müşahidəsi təmin olunur. Bu, ümumi razılığın çox faydalı komponentidir və türkiyəli həmkarlarımızın prosesə cəlb olunmasını hiss etdirir. Bu, sabitləşdirici faktordur", - deyə Rusiya XİN başçısı vurğulayıb.

## Proqnoz



**2021-ci ildə Azərbaycanda ümumi daxili məhsulun 2,8 faiz artımı proqnozlaşdırılır. Bu barədə Dünya Bankının "Dünya iqtisadiyyatının perspektivləri" hesabatında deyilir.**

Eyni zamanda, Azərbaycan iqtisadiyyatının 2022-ci ildə 3,9 faiz, 2023-cü ildə isə 3,4 faiz artımı gözlənilir. Hesabatda qeyd olunur ki, Cənubi Qafqaz regionunun iqtisadiyyatı 2021-ci ildə 3,6 faiz, 2022-ci ildə 4,2 faiz artım nümayiş etdirəcək. Dünya Bankı, həmçinin 2021-ci ildə dünya iqtisadiyyatının 5,6 faiz artım göstərəcəyini proqnozlaşdırır. Bu son 80 ildə ən yüksək artım tempi ola bilər.

Aktual

# COVID pasportu müəmması

## Xəstəliyi siptomsuz və ya yüngül keçirənlərin bu sənədi əldə etməsi necə tənzimlənəcək?




**Məlum olduğu kimi, bu gündən ölkədə COVID-19 pasportunun tətbiqinə başlanılır. Belə ki, Operativ Qərargahın elan etdiyi qaydalara əsasən, iyunun 10-dan Azərbaycanda idman zalları və su hovuzları açılır. Sözügedən obyektlərin xidmətindən yalnız COVID-19 pasportu olanlar, yəni vaksinasiyadan keçənlər və ya immunitet sənədi olanlar istifadə edə biləcəklər.**

İyulun 1-dən etibarən isə COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatı tələbi müəyyən edilən iş və xidmət sahələrinin işçilərinin ən azı 80 faizinin belə pasporta və ya sertifikata malik olması tələb olunacaq. Nəzərdə tutulan qaydalara riayət etməyən qurumlar cəzalandırılacaqlar.Burada "ASAN Login" sisteminə istifadəçi FİN-i, "Asan İmza", Elektron imza və ya BSXM (Bank Sertifikat Xidmətləri Mərkəzi) imzası ilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçdikdən sonra açılan pəncərədə "Digər xidmətlər" bölməsi seçilməlidir."Digər xidmətlər" bölməsi seçildikdə ekranda "COVID-19 vaksin sertifikatı" və ya "COVID-19 immunitet sertifikatı" seçimləri əks olunur.



**Könül Cəfərova,**
Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının dosenti, infeksionist

Əgər vətəndaş vaksin olunubsa, "COVID-19 vaksin sertifikatı" seçimini etməlidir. Xəstəliyə yoluxub sağalmış şəxs isə "COVID-19 immunitet sertifikatı" seçimini etməlidir. Bu zaman təqdim olunan COVID-19 pasportunu elektron formatda yükləmək, eləcə də çap versiyada əldə etmək olar. Qeyd edək ki, COVID-19 pasportunun doğruluğunun sənəddə əks olunan "QR Code" vasitəsilə yoxlanılması da mümkündür. Vətəndaşlar COVID-19 pasportunu "E-Təbib" mobil tətbiqi vasitəsilə də əldə edə bilərlər.

Təbii ki, Agentliyin bu açıqlamasından sonra hər kəsi haqlı olaraq bir sual düşündürməyə başladı. Bəs, xəstəliyi simptomsuz və ya yüngül keçirənlərin, yaxud da peyvənd vurdurmağa əks göstərişi olan insanların aqibəti necə olacaq? Onlara COVID-19 pasportunun və ya immunitet sertifikatının verilməsi necə tənzimlənəcək? Axı, bu insanların əksəriyyəti xəstəliyi simptomsuz və ya yüngül keçirdiklərindən COVID-19 testi verməyiblər. Yeri gəlmişkən, dünənə olan məlumata görə, ölkədə COVID-19-a yoluxanların rəsmi sayı 334 min 917 nəfərdir. İndiyədək 3 milyon 589 min 231 test aparılıb. Təxminən, 1,5 milyon nəfərin isə xəstəliyi siptomsuz və ya yüngül keçirdiyindən rəsmi qeydiyyatdan kənarda qaldığı güman edilir.

■ **Tanınmış jurnalist Səadət Məmmədova sosial şəbəkədə koronavirusu keçirib müvafiq qurumun sistemində adı düşməyən insanların vaksin vurdurmaqla bağlı problemindən yazıb. Jurnalist bildirib ki, COVID əleyhinə vaksin dövriyyəyə buraxılanda deyildi ki, koronavirusa yoluxmuş şəxslərə 6 aydan sonra peyvənd vurulmalıdır. İndi də COVID-19 pasportu zərurəti yaranıb.**

"Bu pasport yalnız peyvənd vurduranlara və koronavirusa yoluxub TƏBİB-in sistemində qeydiyyata düşənlərə verilir. Axı çox adam virusa yoluxub, simptomsuz və ya yüngül keçirib. Qızdırması olmadığına və ya 38-dən aşağı olduğuna görə təcili yardım və ya poliklinika ondan analiz götürməyib. Hamımız bilirik ki, təcili yardım ancaq qızdırması 38-dən yuxarı olanlardan gəlib yaxma götürürdü. Əgər sən xəstəliyi yüngül və ya simptomsuz keçirirsənsə, virusa yoluxub- yoluxmadığını bilmək üçün mütləq özəl laboratoriyada pullu test verməlisən. Bunun da qiyməti 90 manatdan başlayır. Axı hamının bu testi vermək imkanı yoxdur.

Kimlərinsə xəstəliyi yüngül keçirdiyi üçün və testə verməyə əlavə pulu olmadığı üçün TƏBİB sistemindən kənar qalması onun problemi hesab olunmamalıdır. TƏBİB və Səhiyyə Nazirliyi işini elə qurmalı idi ki, hamıdan test götürülsün, təkcə qızdırması 38-dən yuxarı olanlardan yox. İndi belə vəziyyət yaranıb ki, immun analizi verib xəstəliyi keçirdiyini sübut edən sənəd təqdim edəndə həmin sistemə daxil etmirlər. Nəticədə pasportsuz qalırsan". S. Məmmədova vurğulayıb ki, bu kimi hallarda işlərini itirməmək üçün vaksin vurduran şəxslərdə problem yaranarsa, məsuliyyəti kimin daşıması sual altında qalır:"İnsan 2 ay əvvəl yüngül formada xəstəlik keçirib, amma test götürülmədiyi üçün rəsmi orqanın sisteminə düşməyib, indi iş yeri ondan pasport tələb edir. Bu adam da xəstəliyi təzə keçirdiyinə görə vaksin vurdurmağa qorxur. Dünən TƏBİB rəsmisi Vasif doktor dedi ki, immun analizi ilə pasport verilməyəcək. Bəs bu adamlar (onların sayı çoxdur) nə etməlidir? İşlərini itirməmək üçün vaksin vurdurmaq məcburiyyətindədirlər. Onlara 6 aydan tez vurulacaq vaksin problem yaradarsa, məsuliyyəti kim daşıyacaq? Məncə, bu kateqoriyadan olan insanlarla bağlı hər hansı bir qərar qəbul edilməlidir".

S. Məmmədovanın sözügedən statusuna cavab olaraq TƏBİB-in mətbuat katibi Elnarə Baxışova bildirib ki, antitel olduğu təqdirdə vaksinin vurulması tibbi cəhətdən əks-göstəriş hesab edilmir: "Yəni, narahatlığa əsas yoxdur".

TƏBİB rəsmisi, həmçinin qeyd edib ki, bu məsələ ilə bağlı qərarlar TƏBİB tərəfindən verilmir. Bu məsələ ilə bağlı Səhiyyə Nazirliyi isə birmənalı şəkildə bəyan edib ki, koronavirusa yoluxan və rəsmi qeydiyyata düşməyən şəxslər antitel testinin nəticəsi ilə COVID-19 pasportu ala bilməzlər. Səhiyyə Nazirliyinin nümayəndəsi Günay Quluzadə bildirib ki, COVID-19 pasportu yalnız son 6 ayda virusa yoluxmuş və PCR testi ilə təsdiqlənmiş, COVID-19 sertifikatı isə peyvənd vurduran şəxslərə verilir".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının dosenti, infeksionist Könül Cəfərova hesab edir ki, vətəndaşlara həm də antitel testi əsasında COVID-19 pasportu verilməlidir:**

"Bəzi insanlar var ki, xəstəliyi ya simptomsuz, ya da yüngül keçirib. Bilirik ki, temperaturu 38 dərəcədən aşağı olan insanlardan yaxma götürülmürdü. Hər vətəndaşın da imkanı yox idi ki, COVID-in simptomunu özündə müşahidə edəndə gedib özəl klinikada test versin. Bu xəstəlikdən şübhələnənlər təkcə özləri deyil, həm də ailə üzvləri test verməli idilər. Ona görə də həmin insanlar məcbur idilər ki, evdə qalıb müalicələrini aparsınlar. Həmin insanların qanında 3 aydan sonra antitellər yaranır. Biz normada olaraq 7-10 götürürük, əgər antitellər 10-dan yuxarıdırsa, deməli, həmin insanlar virusu keçiriblər. Biz bu insanlara 1 il müddətində peyvənd vurmağın tərəfdarı deyilik. Yəni, bir il müddətində həmin şəxsdə vaksin aparılmamalıdır. Həmin şəxsə COVİD-19 pasportu verməliyik. Digər məsələ peyvəndə əks-göstərişi olan insanlardır. Onkoloji xəstələrdən kimyaterapiya alan xəstələrə, allergiyası olanlara peyvənd olmaz. Bunu allerqoloqla məsləhətləşmək lazımdır. Əgər allerqoloq müsbət rəy verərsə, peyvənd vurmaq mümkündür. Mütəxəssis mənfi rəy verdiyi halda isə bu insalarla bağlı xususi reystr yaradılmalı və onların dəqiq sayı müəyyən olumalıdır. Biz bu insanların hüquqlarını pozub, ictimai mühitdən kənar tuta bilmərik. Həmin şəxslərə sadəcə tövsiyə olunmalıdır ki, özlərini qorumaq üçün üç qızıl qaydaya riayət etsinlər: maska taxsınlar, sosial məsafə saxlasınlar və spirtdən istifadə etsinlər".

> “
> *Onkoloji xəstələrdən kimyaterapiya alan xəstələrə, allergiyası olanlara peyvənd olmaz*
>
> *Antitellərin yoxlanılması əsasında COVID pasportunun verilməsi daha məqbul olar*
>
> *Sadəcə, səbirli olmalıyıq, güman edirəm ki, vəziyyət yaxşılığa doğru inkişaf edəcək*

■ **Məsələyə münasibət açıqlayan tibb elmləri doktoru, professor Adil Qeybulla isə deyir ki, ölkədə karantin rejiminin yumşaldılması və ya sərtləşdirilməsi epidemioloji vəziyyətə bağlıdır. Onun sözlərinə görə, Azərbaycanda əhalinin xeyli hissəsi vaksinasiya olunub. Həmçinin çox sayda insan bu və ya digər formada xəstəliyi keçirib:** "Artıq xeyli sayda insanda COVID-ə qarşı immunitet formalaşıb. Bu istiqamətdə aparılan tədbirlər öz effektivliyini göstərir. COVID pasportuna gəlincə, pasport əgər vaksinasiya olunan şəxslərə verilirsə, demək, bunda immunilizasiya əsas götürülür. Nəzərə almaq lazımdır ki, bütün vaksin olunanlarda immunitet formalaşmır. Vaksinasiya 80 faiz effektivlik civarındadır.



**Adil Qeybulla,**
tibb elmləri doktoru, professor

Belə halda COVID pasportu vermək tam təhlükəsizlik deyil. Ümumiyyətlə isə düşünürəm ki, antitellərin yoxlanılması əsasında COVID pasportunun verilməsi daha məqbul olar. Təklif edirəm ki, antitel, bədəndə cisimlərin təyini testləri ucuz qiymətə təklif edilsin, hər kəs üçün əlçatan olsun. Xəstəlik keçirən, vaksinasiya olunan insanlar rahat şəkildə gedib bədəndəki antitelləri yoxladıra bilsin. Kimdə antitel testi normaldırsa, onlara COVID pasportu verilsə, daha ədalətli olar. Məncə, ictimai təhlükəsizlik üçün pasportla diskriminasiya olunmaq düzgün deyil".

■ **Məsələnin hüquqi tərəflərinə gəlincə, hüquqşünas Səməd Vəkilov isə deyib ki, bu məsələdə bir qədər gözləmək lazımdır: "Məncə, burada hələ ki, məcburiyyət yoxdur.** Bir qədər gözləyək görək necə olacaq. Ümumiyyətlə, mən tərəfdaryam ki, hansısa qərarlar qəbul olunanda mütləq düşünmək lazımdır. Düzdür, COVID gözlənilməyən qlobal bir problemdir. Bu məsələdə bütün ölkələr bir-birinin təcrübəsindən yararlanırlar. Eyni zamanda, biz də müxtəlif ölkələrin təcrübəsindən istifadə edirik. Sadəcə, səbirli olmalıyıq, güman edirəm ki, vəziyyət yaxşılığa doğru inkişaf edəcək".

### Yeri gəlmişkən...

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaydığı açıqlamaya görə, COVID-19 pasportunun iki növü var. Bunlardan biri "COVID-19 vaksin sertifikatı",digəri isə "COVID-19 immunitet sertifikatı"dır.**

"COVID-19 vaksin sertifikatı" COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunanlara (iki dozada), "COVID-19 immunitet sertifikatı" isə xəstəliyə yoluxub sağalmış şəxslərə verilir. Sözügedən sertifikatları əldə etmək üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində E-xidmətlər bölməsinin "Şəxsi Kabinetə giriş" (<https://kabinet.its.gov.az/az/index>) altbölməsi seçilməlidir. Bu bölmə "MyGov" portalına da inteqrasiya edilib.

✍ *Sevinc*

# Erməni katolikosunun Xankəndinə səfərinə etiraz

Bəyanat

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə II Qareginin Xankəndiyə səfərinə dair bəyanat yayıb. Hafta.az bəyanatı təqdim edir.**



**Şeyxülislam Allahşükür Paşazadə,**
Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri

- Otuz ilə yaxın müddətdə Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğalda saxladığı, BMT qətnamələrinin tələblərini yerinə yetirmədiyi zamanda biz həmişə münaqişənin sülh yolu ilə həllinə, müxtəlif səviyyələrdə, o cümlədən dini müstəvidə danışıqlar prosesinə tərəfdar olduq, din adından nifrətə çağırışlar, qızışdırıcı bəyanatlar səsləndirmədik. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dini liderlərin Ümumdünya Kilsələr Şurasının, Gürcü Pravoslav Kilsəsinin, Vatikanın, xüsusilə Rus Pravoslav Kilsəsinin ali vasitəçiliyi ilə baş tutmuş Montrö, Rostov, Moskva, Tbilisi, Yerevan, Bakı görüşləri sayəsində dini müstəviyə keçməsinə yol verməmişdik. Lakin çox təəssüf ki, münaqişənin sülh yolu ilə ədalətli həlli ilə bağlı səylər erməni kilsəsi tərəfindən əməldə dəstəklənmədi. İllərlə davam edən dinlərarası dialoqumuz dövründə sülhə nail olmaq naminə birgə bəyan etdiyimiz və hazırkı erməni dini liderlərinin də imzaladığı bəyannamələrin ruhuna zidd olaraq Erməni Apostol Kilsəsi öz xalqına nicat verəcək sülh ideyalarını təşviq etmədi, barışığa, dinc həyata, qarşılıqlı anlaşma və əməkdaşlığa sövq etmədi. Əksinə, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsini tələb edən BMT-nin və digər beynəlxalq təşkilatların qərarlarına məhəl qoymayan erməni siyasi liderlərin cinayətkar əməllərinə mənəvi haqq qazandırdı.

> “
> *Çox təəssüf ki, münaqişənin sülh yolu ilə ədalətli həlli ilə bağlı səylər erməni kilsəsi tərəfindən əməldə dəstəklənmədi*

Bu cür fəaliyyətin hələ də davam etdirilməsi, erməni katolikosu II Qareginin bu yaxınlarda Xankəndiyə səfər etməsi və bu zaman onun tərəfindən revanşist bəyanatların səsləndirilməsi böyük təəssüf doğurur. Həmçinin qeyd olunmalıdır ki, erməni kilsəsi işğal altında olmuş torpaqlarımızda dağıntı, həqarətə məruz qoyulmamış salamat bir məscid, dini abidə qalmadığı halda, multikultural dəyərlər ölkəsi olan, tolerant Azərbaycanda guya xristian dini abidələrinin təhlükədə olduğu barədə, habelə ziyarət və ibadətlərinə mane yaradıldığına dair saxta məlumatlar yayır.

Militarist ritorikası və davranışı tarixdə heç kimə fayda verməyib. Müharibə erməni xalqının müsibətlərinə, erməni analarının özgə torpağında işğalçı müharibədə həlak olmuş və itkin düşmüş övladları üçün acı göz yaşlarına və nisgilli fəryadlarına səbəb oldu. Sülhməramlıların atəşkəsi qoruduğu bir məkanda həyat deyil ölümə, dinc birgə yaşayışa deyil, işğala, zülmə və zora xeyir-dua vermək dini dəyərlərlə bir araya sığmır. Heç şübhəsiz ki, bu kimi yanaşma bölgədə yaşayan xalqların, ilk növbədə, məhz erməni xalqının xoşbəxt və firavan yaşamasına xidmət etmir. Din xadiminin missiyası münaqişə və qarşıdurmaya deyil, müqəddəs amallar olan barış və əmin-amanlığa xidmət olmalıdır.

44 günlük Vətən müharibəsində Ali Baş Komandanın ətrafında sıx birləşmiş Azərbaycan xalqının Ordu, dövlətlə birlik əzminə, haqqın, ədalətin bərpası, Vətən torpağı uğrunda mübarizəyə hazırlıq ruhuna bütün dünya şahidlik etdi. İşğala son qoyaraq tarixi ədaləti, beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edən Azərbaycan hazırda bölgənin, o cümlədən Ermənistanın iqtisadi inkişafını, erməni xalqının rifahını təşviq edəcək əməkdaşlıq layihələri ilə çıxış edir.

Bir Olan Yaradınımız, xalqlarımız qarşısında məsuliyyətimiz biz dini liderləri sülh, əmin-amanlıq, problemlərin ədalətli həlli naminə davamlı səy göstərməyə sövq edir. Hazırkı vəziyyətdə hər bi yola qayıtmağa yol verməmək, heç şübhəsiz, həyati əhəmiyyət kəsb edir. Sülh və anlaşma yolu asan deyil və güclü iradə, xoşməramlı səylərin birləşdirilməsini tələb edir. Belə bir taleyüklü mərhələdə yenidən müharibəyə təhrik edən çağırışlar qəti şəkildə pislənilməlidir. Xalqların xoşbəxt, dinc birgə yaşayışı üçün, ilk növbədə, sülh və sabitlik lazımdır, buna görə bölgəmizdə hadisələrin xoşagəlməz istiqamətə yönləndirilməsi cəhdlərinin qarşısı qətiyyətlə alınmalıdır. Dünya birliyi bu məsələdə biganə qalmamalı və belə hallara qarşı öz səsini ucaltmalıdır.

Dünya ictimaiyyətinə və dini liderlərə müraciət edərək Erməni Apostol Kilsəsinin Uca Rəbbimizin buyurduqlarına zidd hərəkətlərinə münasibət bildirməyə, bölgəmizdə müharibə deyil, sülh və tərəqqinin bərqərarı işinə dəstək verməyə çağırıram. Uca Yaradan dünyada sülh və əmin-amanlığın bərqərar olmasına yardımçı olsun. Amin!

# Ermənistan beynəlxalq hüququ kobud şəkildə pozur



**Azərbaycanlı jurnalistlərin vəzifə borclarını yerinə yetirərkən minaya düşüb həlak olmaları yolverilməzdir. Beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti Ermənistanın təxribatçı hərəkətlərini qətiyyətlə pisləməlidir.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ukrayna Avropa Partiyasının sədri, hüquq elmləri namizədi Nikolay Katerinçuk söyləyib. Onun sözlərinə görə, jurnalistlərin həyatına qəsd həm də azad sözə, onların fəaliyyətinə qarşı yönəlmiş açıq-aşkar terror aktıdır. "Ermənistan mina xəritələrini Azərbaycana təqdim etməlidir. Əks halda, bu, beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasıdır. Dünya birliyi günahsız insanların həlak olmasına göz yummamalıdır. Beynəlxalq təşkilatlar bu xəritələrin Azərbaycana təhvil verilməsi üçün Ermənistana təzyiqi artırmalıdır", - deyə partiya sədri əlavə edib.

Qeyd edək ki, xidməti vəzifələrini yerinə yetirmək üçün işğaldan azad edilmiş Kəlbəcərə ezam olunmuş telekanal və informasiya agentlikləri əməkdaşlarını aparan "KamAZ" markalı sərnişin avtomobilinin iyunun 4-də saat 11 radələrində rayonun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşməsi nəticəsində üç nəfər - AzTV-nin operatoru Sirac Abışov, AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, daha 4 nəfər isə müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

# İnklüziv təhsil: mövcud vəziyyət, gələcək perspektivlər

## Layihə

***Hər bir uşağın pulsuz təhsil almaq hüququ vardır. Sağlamlıq imkanları məhdud olanlar uzun illərdir ki, təhsil almaqla bağlı bir sıra çətinliklərlə üzləşirlər. Onların üzləşdiyi çətinliklərin obyektiv və subyektiv səbəbləri var. Bəzən valideynlər sağlamlıq imkanı məhdud olan uşaqlarından utanaraq onların sosiallaşmasına şərait yaratmaqdan çəkinirlər. Cəmiyyətin özü belə uşaqlara qarşı laqeydlik nümayiş etdirdiyindən sağlamlıq imkanları məhdud uşaqlar həyatlarını dörd divar arasında keçirmək məcburiyyətində qalırlar. Son illər istər məktəbəqədər, istərsə də orta təhsil sahəsində aparılan islahatlar sağlamlıq imkanı məhdud övladı olan valideynlər üçün yeni ümidlər yaradıb. Belə ki, ölkəmizdə inklüziv təhsilin inkişaf etdirilməsi istiqamətində atılan addımlar bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasına imkan yaradıb.***



**Ölkəmizdə inklüziv təhsilin inkişaf etdirilməsi istiqamətində atılan addımlar bəzi çətinliklərin aradan qaldırılmasına imkan yaradıb**

Qeyd edək ki, inklüziv təhsil - təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan inkişaf prosesidir. Bu təhsil sistemi sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını təmin edir. İnklüziv təhsil istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud uşaqların bərabər təhsil alma hüquqlarını təmin edir. Təhsilin bu növü belə uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var.

Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Onun əsas vəzifəsi məhdud imkanlara malik insanların peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq və tərbiyəçilərin üzərinə düşür. Ümumiyyətlə, korreksiyaedici xidmət dedikdə, öncə onların təhsilə daha tez uyğunlaşması, uşaqlarla effektiv ünsiyyət qura bilməsi nəzərdə tutulur. Məsələn, uşaq bağçalarında, yaxud məktəbəqədər hazırlıq müəssisələrində tərbiyəçilərin əsas rolu aşağıdakı funksiyaları həyata keçirməkdən ibarətdir: uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması və s. Bir sözlə, məktəbə hazırlıq prosesində pedaqoq uşağı fiziki və mənəvi cəhətdən tərbiyə edir,cəmiyyət tərəfindən müəyyən edilmiş vəzifələrə uyğun şüurlu fəaliyyətə hazırlayır.

### Bu təhsil forması ilə bağlı hansı işlər görülüb?

**Təhsil Nazirliyinin son illər həyata keçirdiyi ən uğurlu layihələrdən biri kimi məhz inklüziv təhsillə bağlı layihə hesab olunur. Belə ki, ölkəmizdə "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilib.** Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" təsdiq edilib. İnkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılıb. Layihələrin icrası gedişində 15 ümumi təhsil, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunub. 2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsillə bağlı görülən işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilib. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçib. 2016-cı ildə xüsusi təhsil sistemində interaktiv proseslər həyata keçirilib və xüsusi qayğıya ehtiyacı olan uşaqların yaradıcılıq potensialının inkişafı sahəsində inklüziv təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər görülüb. 2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılıb. Bu məqsədlə müəyyənləşdirilən pilot inklüziv məktəblərin (Bakıdakı 138, 220, 202 və 252 nömrəli məktəblər) hər birində iki sinif olmaqla, sağlamlıq imkanları məhdud olan 4 uşaq birinci sinfə qəbul edilib. Hazırda Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 86 şagird inklüziv təhsilə cəlb edilib.

Ölkə başçısı İlham Əliyevin 14 dekabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq olunan "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" da məhz sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməsində və onların təhsili üçün maneəsiz mühit yaradılmasında geniş imkanlar yaradır.

### İnklüziv təhsil dünyada

**Məlumat üçün onu da bildirək ki, inkluziya ingilis dilindən tərcümədə "daxil olma", "qoşulma" deməkdir. İnklüziya sağlamlıq imkanları məhdud olan təhsil alanların öz güclərinə inamlarını artırmağa, həmçinin onları digər uşaqlarla birgə məktəbdə təhsil almağa stimullaşdıran cəhddir.**

İnklüziya yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların cəhdlərini həyata keçirməyə kömək etmir. Belə uşaqlar sırasına həmçinin müxtəlif mədəniyyətlərə malik, həyat tərzlərinə görə bir-birindən fərqlənən, başqa dillərdən olan, təhsilə müxtəlif maraqları və imkanları olan uşaqları da aid etmək olar. Belə uşaqlara informasiyanın ötürülməsi üsullarında müxtəlif modifikasiya və variantlar lazımdır.

Hazırda inklüziv təhsil bir çox Avropa ölkəsində geniş yayılıb. Xüsusilə də İngiltərədə bu təhsil sistemi geniş yayılıb və bu cür uşaqlara əlverişli təhsil imkanları yaradılır. Bu ölkədə hazırlanan İndividual Təhsil Planına (IEP) əsaslanaraq sağlamlığı məhdud uşaqların 90 faizi təhsilə cəlb olunub. Bu təhsil planı imkan verir ki, uşaqların hərtərəfli inkişafı təmin edilsin. Eyni zamanda siniflərdə uşaqların dərsliklərlə təmin olunmasına şərait yaradır. Türkiyədə isə belə uşaqlar üçün xüsusi təhsil və təlim verən məktəblər, mərkəzlər fəaliyyət göstərir və dərsliklərlə təmin olunur. Ümumiyyətlə, inklüziv təhsilin təməli ilk dəfə Parisdə görmə məhdudiyyətli usaqlar üçün məktəbin açılması ilə qoyulub. Daha sonra Avropanın bir çox ölkəsində və Rusiyada, 1830-cu illərdə isə ABŞ-da açılıb. Hazırda bu ölkələrdə inklüziv təhsil və təhsilə dair dərsliklər yüksək səviyyədədir.

### Səsli dərsliklər - inklüziv təhsilə dəstək vasitəsi

**Azərbaycanda inklüziv təhsillə bağlı nəzərdə tutulan innovativ layihələrə dəstək də artırılıb. Məsələn, bir neçə il öncə Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalibi olan "Səsli dərslik" layihəsi bu gün də uğurla davam etdirilir.**

Kəlbəcər rayon 19 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Nofəl Şirinov innovativ bir layihə olan "Səsli dərslik" ideyasının dövlətimizin başçısının 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan qaynaqlandığını deyib. Bununla bağlı hafta.az-a danışan I müəllif bildirib ki, bu layihə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və sosial adaptasiyası üçün imkanların təmin olunması təhsil siyasətinin tərkib hissəsidir: "VI sinfin ədəbiyyat dərsliyindəki bədii mətnlər perspektiv planlaşdırmanın tələblərinə uyğun ardıcıllıqla professional diktor və qiraətçilər tərəfindən studiya şəraitində səsləndirilib və www.seslidərslik.az saytına yerləşdirilib. Səsləndirilən bədii mətnləri şagirdlər saytdan dinləyərək öyrənə bilirlər. Eyni zamanda, layihə ilə bağlı mobil tətbiq də mövcuddur. Valideynlər həmin kitabı telefonlarına da yükləyə bilərlər. Demək olar ki, bu layihəyə böyük maraq var və yüklədiyimiz videolara baxış sayı 300 mini ötüb. Bu yaxınlarda isə inklüziv təhsilə dəstək məqsədilə Heydər Əliyev Fondunun dəstəyi əsasında daha bir layihəyə başlamışıq. "1001 səsli hekayə" adı altında olan layihəmizdə həm orta məktəb dəsliklərindən, həm də klassik və dünya ədəbiyyatından 5-16 yaşlı uşaqlar üçün yeni resurslar hazırlayırıq. Bununla bağlı bir neçə video hazırdır və uşaqların ixtiyarına verilib".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

## Proqnoz



**2021-ci ildə Azərbaycanda neft və maye karbohidrogen hasilatı 0,73 milyon barel/sutka səviyyəsində gözlənilir. Bu barədə ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya İdarəsinin (EIA) hesabatında deyilir. Əvvəlki hesabatda bu göstərici 0,74 milyon barel/sutka proqnozlaşdırılmışdı.**

2021-ci ildə rüblük hasilat birinci rübdə 0,74 milyon, ikinci rübdə 0,71 milyon, üçüncü rübdə 0,71 milyon, dördüncü rübdə isə 0,75 milyon barel/sutka səviyyəsində proqnozlaşdırılır. 2022-ci ildə isə proqnozlara əsasən Azərbaycanda neft və maye karbohidrogen hasilatı 0,78 milyon barel/sutka olacaq. Əvvəlki hesabatda 2022-ci ildə neft hasilatı üzrə proqnoz orta hesabla 0,79 milyon barel/sutka təşkil etmişdi. Gələn il rüblük hasilat birinci rübdə 0,77 milyon, ikinci rübdə 0,79 milyon, üçüncü rübdə 0,76, dördüncü rübdə isə 0,79 milyon barel/sutka təşkil edəcək. 2020-ci ildə Azərbaycanda neft və maye karbohidrogen hasilatı sutkada orta hesabla 0,7 milyon barel, 2019-cu ildə 0,78 milyon barel təşkil edib. EIA-nın göstəricilərinə görə, 2020-ci ilin birinci, ikinci, üçüncü və dördüncü rüblərində hasilat müvafiq olaraq sutkada 0,67, 0,69, 0,66 və 0,69 milyon barel təşkil edib.

## Statistika



**2020-2021-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 16040 şagirdin elektron sistem (sy.edu.az) vasitəsilə yerdəyişməsi aparılıb.** İdarədən hafta.az-a verilən məlumata görə, şagird yerdəyişməsinin elektronlaşdırılması məktəb-valideyn əlaqələrinin bu proses çərçivəsində daha da təkmilləşdirilməsinə və valideylərin təhsil müəssisələrii ilə təmasının daha rahat və şəffaf təşkilinə xidmət edir.

# Sülhməramlıların statusu dəqiqləşdirilməlidir

**Brüsseldə mənzillənmiş Beynəlxalq Böhran Qrupu ("İnternational Crisis Group") Azərbaycanla Ermənistan arasında ötən il noyabrın 10-da üçtərəfli bəyanatın imzalanması ilə başa çatmış müharibədən sonra Qarabağa dair özünün ilk geniş hesabatını dərc edib.**



"Dağlıq Qarabağ üçün müharibəsonrası perspektivlər" adlı hesabatda qeyd olunur ki, Azərbaycanla Ermənistan arasında atəşkəs kövrəkdir. Daimi gərginliyin mənbələri isə bir çox amillərdir, o cümlədən tərəflərin mövqelərinin bir-birinə və yaşayış məntəqələrinə yaxın olması, müharibəsonrası quruculuqla bağlı az qala hər gün baş verən mübahisələr, o cümlədən minalardan təmizlənmədən tutmuş kənd təsərrüfatı işlərinə qədər, habelə tərəflərin əsas nəqliyyat magistrallarına çıxış baxımından bir-birindən asılılığı.

Azərbaycan, Rusiya və Ermənistan rəsmiləri, ekspertləri ilə müsahibələr əsasında hazırlanmış hesabatda bir sıra təkliflər də irəli sürülür. Bunlardan ən vacibi Rusiya sülhməramlı kontingentinin mandatının təsdiq edilməsidir.

Belə ki, üçtərəfli bəyanatda sülhməramlıların vəzifəsi barədə cəmi üç cümlə yer alır, onların mandatı detallı şəkildə təsvir olunmur və Rusiya hərbçiləri yerlərdə həll etməli olduqları bir çox vəzifələrlə qarşılaşıblar. Onlar müşahidə postları qurmağa başlayıblar, eyni zamanda qaçqınların avtobuslarını müşaiyət ediblər, üstəlik dağılmış infrastrukturun bərpası ilə məşğul olublar. "Sual yaranır ki, sülhməramlılar bundan sonra da zamanın necə keçməsindən asılı olaraq müxtəlif işləri görəcəklər. Onlar nəinki hərbi eskalasiyanın qarşısını alacaqlar, eyni zamanda növbəti beş ildə itmiş inəkləri də axtaracaqlar? Nə qədər xoş niyyətlə olsa da süıhməramlılar hər şeylə məşğul ola bilməz", - təşkilatın ekspertləri vurğulayırlar. Hesabatda qeyd olunur ki, sülhməramlılarla yanaşı regiona Rusiya Fövqəladə Hallar Nazirliyinin qrupu da gəlib və rusiyalı mütəxəssislərin ümumi sayı 4 min nəfərə yaxındır. Lakin formal mandatın olmaması müşahidəçiləri onların növbəti mümkün eskalasiya zamanı necə hərəkət edəcəklərinə dair təxminlər yürütməyə məcbur edir.

Beynəlxalq Böhran Qrupu qeyd edir ki, Moskva sülhməramlılar üçün daha aydın, konkret mandat formalaşdırmaq üzərində işləyir. Lakin indiyədək hazırlanmış iki variantı tərəflər rədd ediblər. Moskva isə bu səylərdən əl çəkməyə hazırlaşmır, amma tələsmək də istəmir. Yəni Rusiyanın yanaşması belədir. Bildirilir ki, sülhməramlılar üçün daha ətraflı mandatın hazırlanması həll oluna biləcək vəzifədir, amma bu məsələ üç tərəflə razılaşdırılmalıdır.

## XƏBƏRİNİZ OLSUN...



■ Qaradağ Rayon Polis İdarəsinin rəisi öz ərizəsi ilə tutduğu vəzifədən azad edilib. Bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Nazirin əmri ilə polis polkovniki İsfəndiyar Möhbalıyev öz xahişi ilə daxili işlər orqanlarından xaric edilib. İdarə rəisinin yerinə yeni təyinat olmayıb. Faktı Daxili İşlər Nazirliyinin Mətbuat xidməti təsdiqləyib.

---

■ Salvador parlamenti bitkoini ölkə ərazisində rəsmi ödəniş vasitəsi kimi leqallaşdırlan qanunu qəbul edib. Qanun layihəsini 84 deputatdan 62-si dəstəkləyib. Beləliklə, Salvador bitkoini rəsmi ödəniş vasitəsi kimi qəbul edən ilk dövlət olub. Bu qanun layihəsini bir neçə gün əvvəl ölkə prezidenti Nayib Bukele parlamentə təqdim etmişdi. Qanuna əsasən, Salvadorda bitkoin ABŞ dolları ilə yanaşı ödəniş vasitəsi kimi istifadə olunacaq.

---




■ "Son zəng"in keçirilməsi ilə bağlı birgə müzakirələr aparılır. Bunu Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov deyib. "Son zəng" tədbiri ilə bağlı çoxsaylı sorğularınıza ilkin cavab olaraq demək istəyirik ki, bu mərasimin keçirilməsi qaydası ilə bağlı nazirlik həmkar qurumlarla müzakirələr aparır. Yekun qərar bəlli olan kimi dərhal mediaya açıqlanacaq. Bunu isə çox yaxında biləcəyik", - deyə o qeyd edib.

---

■ Təhsil Nazirliyinə yeni aparat rəhbəri təyin olunub. Bunu APA-ya açıqlamasında Nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib. O deyib ki, Həsən Həsənli nazirliyin yeni aparat rəhbəri təyin olunub.

---



■ Dünən Xalq artisti Ramiz Əzizbəyli vəfat edib. Bu barədə Xalq artistinin ailəsindən məlumat verilib. Qeyd edək ki, Xalq artisi Ramiz Əzizbəyli bir müddət öncə koronavirus (COVID-19) diaqnozu ilə xəstəxanaya yerləşdirilmişdi.

---

■ Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər səbəbindən obyektiv olaraq ortaya çıxan böhranların heç birində uğursuz olmadıq. Bu sözləri Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedyev deyib. Medvedyev koronavirus pandemiyasının başladığı dövrdə də ayaqda qaldıqlarını, ancaq hələ də görüləcək çox işin olduğunu bildirib.

---

■ Monqolustan prezidentliyinə namizəd, hakim Monqol Xalq Partiyasının sədri Uxnaagiyin Xurelsux seçkilərdə qalib gəlib. Bu barədə MONÇAME agentliyi məlumat yayıb. Uxnaagiyin Xurelsux 776 min səs toplayıb.

Sorğu

# Nə etməli?!

**Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirən "AZƏRTAC" Xəbər Agentliyinin müxbiri Məhərrəm Əli oğlu İbrahimovun və AzTV telekanalının operatoru Sirac Abışovun mina partlayışı nəticəsində şəhid olması ölkə ictimaiyyətini sarsıtmaqla yanaşı, düşmənə qarşı mühüm tədbirlərin görülməsini tələb edir. Hadisə bir daha dünyanın insan haqlarından danışan təsisatlarının Azərbaycana olan münasibətini ortaya qoydu. Beynəlxalq insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar Ermənistanı ittiham etmək əvəzinə, təəssüflərini bildirməklə kifayətləndilər. Belə olduğu təqdirdə, ictimaiyyət hansı addımların atılmasını təklif edir? Hafta.az bu sualla ictimai-siyasi kəsiminin bir sıra nümayəndələrinə müraciət edib.**



**Fikrət Sadıqov,**
politoloq



**Şair Ramaldanov,**
hərbi ekspert



**Hafiz Hacıyev,**
Müasir Müsavat Partiyasının sədri



**Rauf Zeyni,**
Milli QHT Forumunun rəhbəri



**Elşad Musayev,**
Böyük Azərbaycan Partiyasının sədri

**■ Politoloq Fikrət Sadıqov:**

- Çox təəssüflər olsun ki, bir sıra beynəlxalq təşkilatların sədrləri, nümayəndələri, aparıcı dövlətlərin dövlət xadimləri minaya düşən Azərbaycan jurnalistləri ilə bağlı başsağlığı verməklə kifayətləndi. Minanı kim basdırıb, günahkar kimdir? Bu barədə heç nə demədilər. Gördüyümüz kimi, ermənilərin başını sığallayır, vəziyyəti malalayırlar. Belə olan şəkildə, təbii ki, məsələ yenə mürəkkəbləşir. Minsk qrupunun həmsədrləri - Rusiya, Fransa, Amerika ilə daha sərt şəkildə danışılmalı, daha sərt addımlar atmalıyıq. Bizim diplomatik addımlarımız daha hücumedici olmalıdır. Bu gün Ermənistandan çox sərsəm bəyanatlar səslənir. Təlxək bəyanatlar verən Paşinyan öz oğlunu bizdə əsirlikdə olan ermənilərə dəyişmək istəyir. Bizə nə onun oğlu, nə də digər ailə üzvləri lazımdır. Diversiya ilə mübarizə aparırıq və terrorizmə qarşı bundan sonra da sərt mübarizəmizi aparmalıyıq".

**■ Hərbi ekspert Şair Ramaldanov:**

- 10 Noyabr Bəyannaməsində minalanmış ərazilərin xəritələrinin verilməsi bəndi yoxdur. Ümumən xəritələrin verilməsi beynəlxalq konvensiyanın tələblərinə uyğun qəbul olunmuş bir qərardır. Münaqişə zonasında olan və yaxud müharibədən sonra hər iki tərəf yerləşdirilən mina sahələrini təmizləyib təhvil verməlidir. Təbii ki, mina sahələri varsa, xəritələr də olmalıdır. Hazırda söhbət həmin xəritələrdən gedir ki, Azərbaycana təqdim olunsun. Ona görə də düşünürəm, ermənilər bu addımı ilə bir daha beynəlxalq tələblərə hörmətsizlik nümayiş etdirirlər. Biz ermənilərin Azərbaycana qarşı düşmənçilik, revanşist niyyətindən çəkinmədiyini görürük. Eyni zamanda, Azərbaycanın qələbəsindən və məğlubiyyətdən özünə gələ bilməyən Ermənistan hazırda hakimiyyətsizlik mərhələsinə gəlib çatıb. Orada başda Paşinyan olmaqla, hamının başı seçki marafonuna qarışıb. Hakimiyyətdə olanlar hakimiyyətdə qalmaq, müxalif qüvvələr isə hakimiyyəti ələ almaq üçün hər şeyə əl atırlar. Ermənistanda sosial, iqtisadi vəziyyət çox acınacaqlıdır, dövlət qurumlarının idarəçilik qabiliyyəti aşağı səviyyədədir. Belə bir vəziyyətdə müxalif, xaricdən idarə olunan qruplar siyasi dvidendlər qazanmaq üçün öz hədəflərini məhz Azərbaycana yönəldiblər. Onlar cəmiyyəti qorxu altında saxlamaq istəyir, revanşist ideyalarla çıxış edirlər. Azərbaycanı Ermənistanın ərazi bütövlüyünə təhlükə kimi təqdim edirlər. Bu, savadsız cəmiyyəti, daxili auditoriyanı saxlamağa yönələn yalançı fikirlərdir. Təbii ki, sərhəddə müəyyən gərginliyin olmasını müşahidə edirik. Bütün bunları təbii hal kimi qəbul etmək olar. Hazırda post-müharibə dövrü və Ermənistanın hakimiyyətsizlik zamanıdır. Əlbəttə, seçkiqabağı bir mühitdə bu amillərin olması istisna olunmurdu, prinsipcə buna hazır idik deyə, bütün təxribatların qarşısını ala bilirik. O ki qaldı Laçın dəhlizinə, əlbəttə ki, nəzarətsiz deyil. Orada monitorinq qrupu iştirak edir. Nəzarət məhz Rusiya sülhməramlı qüvvələrinin missiyasına daxildir. Həmin dəhliz ona görə saxlanılıb ki, orada yaşayan ermənilərin Ermənistanda yaşayan ermənilərlə əlaqəsi kəsilməsin. Bu da razılaşdırılmış bir addımdır. Hələ ki, Ermənistanda olan bu vəziyyət müəyyən şəkildə Azərbaycandausiya sülhməramlı qüvvələrinin nəzarəti altında olan ərazilərdə yaşayan ermənilərə təsir edir. Sülhməramlılar hələ ki, qarşıya qoyulan vəzifələri yerinə yetirir, şamil olunmuş ərazilərdə təhlükəsizliyi qoruya bilirlər. Onların missiyası 5 il müddətinə nəzərdə tutulub. 8 ay keçib və bu müddət ərzində, demək olar ki, proseslər məqbul saymaq olar. Əlbəttə ki, bu, Azərbaycan dövlət qurumlarının, güc strukturlarının vəziyyəti nəzarətdə saxlamasının, Rusiya sülhməramlı qüvvələri, monitorinq qrupu ilə düzgün işin qurulması ilə bağlıdır. Proses gözlənilən şəkildə inkişaf edir. Mənə belə gəlir ki, xəritələr verilənə qədər Azərbaycan öz gücünə mina sahələrini təmizləməyə nail olacaq. Ermənilər müəyyən bir şəkildə döyüşlər getməyən ərazilərdə - Kəlbəcər və Laçında xaotik minalar yerləşdirib. Bunun nəticəsində jurnalist həmkarlarımız, digər mülki vətəndaşları itirdik. Erməni hərbçisi 17 maşın minanın ərazilərdə yerləşdirildiyini etiraf edir.

Bütün məsələlər gec-tez həllini tapacaq. Sərhədboyu bütün ərazilər Azərbaycan güc strukturlarının, sərhəd xidmətinin bölmələri, qoşunları, Müdafiə Nazirliyinin hərbi birləşmələrinin qoşunlarının nəzarəti altındadır. Düşünürəm ki, 10 Noyabr Bəyannaməsinin yerinə yetirilməsi ilə bağlı konkret işləri seçkidən sonra görəcəyik. Ona görə də hər bir hala hazır olmalıyıq. Ermənistanın elə bir gücü yoxdur ki, Azərbaycana qarşı güc tətbiq etsin. Azərbaycanın öz sərhədlərini qoruya biləcək gücü də, iradəsi də var.

**■ Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev:**

- Sülhməramlılar, ümumiyyətlə, öz missiyalarını yerinə yetirə bilmirlər. Onlar erməni terrorçularının mühafizəsi, erməni qoşunlarının Azərbaycanda yerləşdirilməsi ilə məşğul olurlar. Sülhməramlılar ərazilərimizə gələndən sonra, 10 Noyabr Bəyannaməsində nəzərdə tutulan hansı tələbləri yerinə yetirib? Təkcə 7 ay müddətində minaya düşmə nəticəsində nə qədər mülki və hərbi şəxslərimiz həlak olub?! Tez-tez erməni diversantlarının təxribatları ilə üz-üzə qalırıq. Kəlbəcərdə baş verən son terror və 2-si jurnalist olmaqla 3 mülki şəxsin həlak olmasını kimin ayağına yazmalıyıq? Deməli, Rusiya sülhməramlıları vəziyyəti stabilləşdirmək əvəzinə daha da gərginləşdirirlər. Nə qədər ki, rus ordusu Qarabağdadır, orada təhlükə qalacaq və torpaqlarımıza tam sahib ola bilməyəcəyik. Görünür, yaxın günlərdə çox ciddi proseslərə start verməli olacağıq. Nə qədər ki, birlikdə hərəkət eləmirik, vəziyyət yaxşı olmayacaq, xalqla Ali Baş Komandan birgə olmalıdır. Azərbaycan hərb sistemi Türkiyənin hərbi standartlarına uyğunlaşdırılmalı və Türkiyənin burada bazaları yaradılmalıdır.

Siyasi partiyalar istənilən anda - istər insan resursları, istər başqa aspektlərdə Ali Baş Komandanın yanında olub, torpaqlarımızı axıra qədər işğaldan azad etməyə hazır olmalıdır. Makronlar kimdir ki, gəlib mənim ölkəmin problemini həll etsin? Makron gedib öz ölkəsinə rəhbərlik etsin. Bu gün özümüzə güvənməliyik. Bu dövlətlərin bizə ağıl verməsinə ehtiyacımız yoxdur. Onların bir məqsədi var: qayıtsınlar, Dağlıq Qarabağ məsələsini gündəmə gətirib, status məsələsini çözsünlər. Heç bir xarici ölkə Qarabağa sahiblik edə bilməz.

**■ Milli QHT Forumunun rəhbəri Rauf Zeyni:**

- Azərbaycan bütün istiqamətlərdə tədbirlərini gücləndirməlidir. Şərəfsiz düşmənlə üz-üzəyik. Biz hansı ərazidə diqqətsiz olsaq, düşmən ora mina basdıra bilər. Dövlət, ANAMA səviyyəsində ərazilərin minalardan təmizlənməsi ilə bağlı işlər görülür. Bunlar azdır, vətəndaşlarımızı maarifləndirməliyik. İnsanlarımız gedib Vətəni, kəndi görmək istəyərkən minaya düşürlər. Son hadisə isə tamamilə başqa mətləblərdən xəbər verir. Bütün beynəlxalq təşkilatlara etirazlarımızı, bəyanatlarımızı verməli, dünyanın diqqətini bura cəlb eləməli, minalanmış zonaların xəritələrinin alınıb Azərbaycana verilməsini təmin etməliyik. Bu istiqamətdə işlər görülməlidir ki, hər hansı bir faciəli hadisə ilə üz-üzə qalmayaq.

Bu gün sülhməramlıların öz missiyasını düzgün yerinə yetirməməsi ilə bağlı ictimaiyyət öz sərt mövqeyini ortaya qoyur. Sülhməramlılar öz mandatlarından kənara çıxmamalı, erməni silahlılarına şərait yaratmamalıdırlar. Bu 10 Noyabr sazişinə ziddir. Tələb edirik ki, rus sülhməramlıları öz mandatından düzgün istifadə etsinlər.Biz Dəmir Yumruğu zəiflətməməliyik. Terrorçunun xisləti belədir ki, harada zəif tərəf görür, zərbəni ordan vurur. Sülhməramlı öz missiyasını düzgün yerinə yetirmirsə, Laçın dəhlizi qapanmalı və sərhəd gömrük postu ilə əvəzlənməlidir. Azərbaycan sərhədçiləri də orada dayanmalıdır. Tərəflər şərtlərə əməl etməlidirlər. Rusiya ilə Türkiyə sülhməramlılarının birgə müşahidə mərkəzindən təhlükəsizliyin düzgün yerinə yetirilməsi tələb olunmalıdır. Əgər bu müşahidə aparılırsa, o zaman kimlərsə sərhədi keçib necə diversiya törədər? Ona görə də bu məsələlər ciddi şəkildə qaldırılmalı, araşdırılmalıdır.

*"Həmsədr dövlətlərlə daha sərt danışmalıyıq*

*10 Noyabr Bəyannaməsində minalanmış ərazilərin xəritələrinin verilməsi bəndi yoxdur*

*Rusiya sülhməramlıları vəziyyəti stabilləşdirmək əvəzinə daha da gərginləşdirirlər*

*Biz hansı ərazidə diqqətsiz olsaq, düşmən ora mina basdıra bilər*

*Ermənilər Laçın koridorundan öz istədikləri kimi istifadə edir...*

**■ Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev:**

- Jurnalistlərin minaya düşməsi aydın göstərdi ki, ermənilər öz məkrli siyasətlərindən və addımlarından geri çəkilməyiblər. Baxmayaraq ki, ağır məğlubiyyətə düçar olublar, amma nə 10 Noyabr, nə də 11 Yanvar öhdəliklərini yerinə yetirir, əksinə, separatçı addımlarını davam etdirirlər. Ermənilər Laçın koridorundan öz istədikləri kimi istifadə edir, istənilən Azərbaycan düşmənini həmin dəhliz vasitəsilə Xankəndi və digər ərazilərimizə gətirirlər. Onlara bu şəraiti rus "sülhməramlıları"? yaradıblar.

Dərhal Laçın dəhlizinə öz sərhədçilərimizi, əsgərlərimizi yerləşdirməli, ermənilərin və digərlərinin qanunsuz gəliş-gedişinin qarşısını almalı, Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistan öhdəliklərini yerinə yetirməyənə qədər Laçın dəhlizini bağlamalıyıq. Sərhədimizi pozan düşmənə qarşı ən sərt tədbir görməli, Zəngəzur, Qazax, Naxçıvan və s. kimi ərazilərimizdən qoparılmış öz dədə-baba torpaqlarımızı addım-addım geri qaytarmalıyıq.

Mən təkliflərimi verirəm, hakimiyyət də bu təklifləri reallaşdırmaq üçün ilk növbədə, Ermənistanın qarantı Rusiyaya xəbərdarlıq etməli, daha sonra Laçın dəhlizini bağlamalı, Ermənistanla aramızda təhlükəsizlik zolağı yaratmaq üçün qoşunlarımıza "İrəli!" əmri verməlidir.

✍ *Tahirə Qafarlı*



# Gömrük Komitəsi ÜGT-nın Siyasi Komissiyasına üzv seçilib

**Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin virtual konfransı keçirilib.**

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, konfransda ÜGT-nin Baş katibi Kunio Mikuriya, ÜGT Şurasının sədri Əhməd Əl Xəlifə, ÜGT Baş katibinin müavini Rikardo Trevino Çapa, təşkilatın Avropa Regionunun 53 üzv dövlətinin gömrük xidmətlərinin rəhbərləri iştirak edib.

Qeyd edək ki, hazırda dünyanın ən inkişaf etmiş ölkələrinin təmsil olunduğu ÜGT-nin Avropa Regionuna Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi rəhbərlik edir. Konfransa da DGK adından komitə sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev sədrlik edib.

S.Mehdiyev konfransda region üçün mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirə olunacağına, beynəlxalq əməkdaşlığın gücləmməsi, gömrüyün gələcək inkişafı üçün vacib qərarların qəbul ediləcəyinə ümidvar olduğunu bildirib. Azərbaycan gömrüyünün pandemiya dövründə də bir sıra mühüm yeniliklərə imza ataraq uğurla inkişaf etdiyini vurğulayan komitə sədri informasiya texnologiyalarına əsaslanan layihələr, beynəlxalq ticarətin inkişafı, qaçaqmalçılığa, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə atılan addımlardan danışıb.

Qeyd olunub ki, cari ildə bir tondan artıq narkotik vasitə aşkar edilərək dövriyyədən çıxarılıb ki, bu da cəmiyyətin sağlamlığının qorunmasına mühüm töhfədir.

S.Mehdiyev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı tarixi Qələbənin sülhün bərpası və qorunması, regional əməkdaşlığın və inteqrasiyanın gücləndirilməsi, tranzit dəhlizlərinin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Komitə sədri ÜGT-nin Avropa Regionu üzrə Gömrük Xidmətləri Rəhbərlərinin 2020-ci il noyabrın 20-də keçirilən konfransından sonra Dövlət Gömrük Komitəsinin ÜGT-nin Avropa regionu üzrə sədr müavinliyi dövründə görülən işlər barədə iştirakçıları məlumatlandırıb və konfransda işgüzar, səmərəli müzakirələrin aparılacağına əminliyini ifadə edib.

ÜGT-nin Baş katibi K.Mikuriya Azərbaycan Gömrük Xidmətinin Avropa Regionuna sədrliyi dövründə faydalı fəaliyyətindən bəhs edib. Bildirib ki, gömrük üçün əsas məsələlərdən biri ticarət-təchizat zəncirinin davamlılığının təmin olunmasıdır ki, pandemiya dövründə gömrük orqanları bu sahədə uğurlu fəaliyyət göstəriblər.

Ümumdünya Gömrük Təşkilatının Baş katibi, eyni zamanda, informasiya texnologiyalarının tətbiqinə xüsusi yer verilməsinin, harmonizasiya sisteminin daha da inkişaf etdirilməsinin vacibliyindən danışıb, gələcək fəaliyyət istiqamətləri barədə fikirlərini açıqlayıb. ÜGT Şurasının sədri Əhməd Əl Xəlifə Dövlət Gömrük Komitəsinin Avropa Regionuna sədrliyi dövründə irəli sürülən faydalı təkliflər və təşəbbüslərə görə komitə sədri Səfər Mehdiyevə təşəkkürünü bildirib, təşkilatın maliyyə imkanlarının artırılması, bu istiqamətdə atılacaq addımlarla bağlı məruzə ilə çıxış edib.

Daha sonra konfransın gündəliyindəki ÜGT üçün digər gəlir mənbələrini müəyyən etmək məqsədilə araşdırmaların başladılması imkanı, təşkilatın Strateji Proqnozlaşdırma layihəsi, Fəaliyyətin Qiymətləndirilməsi sisteminin inkişafı, idarəetmənin təkmilləşdirilməsi, seçkilər və digər məsələlərlə bağlı çıxışlar dinlənilib, fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, konfrans çərçivəsində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionuna sədrlik etdiyi dövrdə səmərəli fəaliyyətinə görə Dövlət Gömrük Komitəsinin Avropa Regionunun Şərq qrupu tərəfindən ÜGT-nin Siyasi Komissiyasına namizədliyi irəli sürülüb və Azərbaycan gömrük xidməti yekdilliklə 2021-2023-cü illər üzrə Siyasi Komissiyaya üzv seçilib.

# Xarici sərmayə qoyuluşları genişləndiriləcək



**İyunun 9-da ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və ABŞ-Azərbaycan Ticarət Palatası (USACC) arasında işgüzar görüş keçirilib.**

AZPROMO-dan hafta.az-a bildirilib ki, görüşdə çıxış edən USAID-in Azərbaycan üzrə missiyasının direktoru Caydev Sinqx və USACC İdarə Heyətinin sədri Reza Vəziri ölkələrimizin ticarət əlaqələri barədə məlumat verib, üçtərəfli əməkdaşlığın ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafına töhfə verəcəyini vurğulayıb, qarşılıqlı ticarət və investisiya əməkdaşlığının inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər.

AZPROMO-nun rəhbəri Yusif Abdullayev Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçirilən islahatlar haqqında məlumat verib, təmsil etdiyi qurumun fəaliyyəti, xarici investorların cəlb edilməsi istiqamətində gördüyü işlərdən danışıb. Görüş çərçivəsində USAID, AZPROMO və USACC arasında üçtərəfli əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənəddə ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının yeni bazarlara çıxarılması və təşviqi işlərinin aparılması, Azərbaycan iqtisadiyyatına xarici sərmayə yatırımının genişləndirilməsi məsələləri əksini tapıb.

Hərbi

# Dünyada iddialı güc:

## Türkiyənin hərbi silah texnologiyaları

**Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəhbəri professor İsmayıl Dəmir bu günlərdə yerli mediaya açıqlamasında müdafiə sahəsində görülən işlərdən, uğurla başa çatdırılan böyük layihələrdən söz açıb. Əlbəttə, Türkiyənin hər sahədə, xüsusilə də hərbi və müdafiə sənayesi müstəvisində qazandığı uğurlar qardaş türk xalqı ilə yanaşı, bizi də qürurlandırır, sevindirir. Deyərdim ki, 44 günlük Vətən müharibəsində Türkiyədən alınmış "SİHA"ların və digər müasir silahların oynadığı gözqamaşdırıcı roldan sonra, hər bir azərbaycanlı Türkiyənin müdafiə sənayesindəki uğurlarının belə demək olarsa, izləyicisinə çevrilib.**



*"Hazırda "F-35"lə bağlı məsələ hər kəsə aydındır və əslində, Türkiyənin bu təyyarələrə ehtiyacı da yoxdur*

### Havadan Müdafiə Sistemləri

**Bu gün Türkiyə Müdafiə Sənayesinin ana hədəflərindən biri mükəmməl Hava Hücumundan Müdafiə Sistemi yaratmaqdır. NATO-nun üzvü olan qardaş ölkənin çevrəsini hərbi-siyasi müstəvidə heç də sabit olmayan ölkələr əhatə edir.**

Üstəlik, PKK-nın timsalında terror təşkilatlarının yuva saldığı həmin ölkələr bir çox siyasi baxımdan da Ankara ilə ziddiyyət yaşayır. Xatırlayırsınızsa, Suriyada İŞİD terror təşkilatı ilə müharibə gedərkən Türkiyənin sərhədyanı ərazilərinə dəfələrlə raketlər atılmışdı. O zaman Ankara ABŞ-dan "Patriot" Havadan Müdafiə Sistemləri almaq istədi. Vaşinqton həmin sistemi Türkiyəyə satmadı. Ölkədəki mövcud Havadan Müdafiə Sistemlərini məxsus olduğu ölkələr çəkib-apardılar. Yəni belə demək mümkün olarsa, NATO ölkələri Türkiyənin hava məkanını hər cür təhdidlərə qarşı müdafiəsiz qoydular. Bundan sonra Türkiyə Rusiyadan "S-400" sistemlərini satın aldı ki, onun da ziddiyyətləri hələ davam etməkdədir. ABŞ bu sistemi aldığı üçün Türkiyəyə sanksiya da tətbiq edib. Belə isə Türkiyə nə etməlidir, hava məkanını necə qorumalıdır? Əlbəttə ki, öz yerli və milli imkanları ilə. İ.Dəmir deyir ki, yerli və milli imkanlarla istehsal etdiyimiz Havadan Müdafiə Sistemlərini bir-bir ordunun və türk millətinin istifadəsinə verməkdədirlər. "Bu sahədə addım-addım irəliləyirik. Bu, elə həssas sahədir ki, dünyanın bütün ölkələrində texnoloji avadanlıqlar mərhələli şəkildə inkişaf etdirilir. Bu gün "S-400" və ya digər uzaqmənzilli Havadan Müdafiə Sistemləri daha çox danışılır. Tək bizdə deyil, dünyanın hər yerində bu və ya bunabənzər söhbətlər gedir. İstənilən ballistik raket, yaxud hipersonik sürətli döyüş təyyarələrinin təhlükəsinə qarşı hazırıqmı?

Bunlar bizim əsas hədəflərimizdir", - deyən cənab Dəmir əlavə edib ki, Havadan Müdafiə Sistemləri deyəndə hər kəsin ağlına ilk gələn qitələrarası raketlər və sair olur. Hansı ki, daha təhlükəlisi və potensial təhdid adi təyyarələrin, helikopterlərin, yaxud qısa və ortamənzilli raketlərdir. Məhz bunu nəzərə alaraq Havadan Müdafiə Sistemlərini mərhələli şəkildə inkişaf etdirməyə çalışırlar. "Daha çox alt səviyyələrdə fərqli təhlükələrə qarşı dayana bilməliyik. Bu təhlükələrə müxtəlif cür dronlar, İHA-lar, irili-xırdalı raketlər və sair daxildir. Əgər mərhələli inkişafa getməsəniz, yəni bütün bu təhlükələri görməzdən gələrək sadəcə ballistik hücuma qarşı dirənsəniz, müdafiəsiz qalarsınız", - İ.Dəmir deyir.

"Əvvəl "Qorqud", daha sonra "Hisar A", ardıyla da "Hisar O" layihələri icra olunub. Bu silahlar, hətta deyərdim ki, istək və tələblərimizdə nəzərdə tutulandan daha mükəmməldir. Sonra onları bir az da inkişaf etdirərək, məsələn, onların hər birinə + əlavə etdik. Yəni "Hisar A +", "Hisar O +". Hazırda bu sistemlər orudumuza təslim edilmə mərhələsindədir, artıq testlər başa çatıb. Bu sistemlərdə bir üstünlük də odur ki, süni zəkadan istifadə edilib, bir çox vəziyyətdə insan əməyi olmadan özü təhdidlərə cavab verir", - deyən cənab Dəmir, təbii ki, ballistik hücuma qarşı da tədbirlər gördüklərini açıqlayıb. Qeyd edib ki, bu müstəvidə "Hisar O +"dan daha güclü sistemlər yaranacaq. Məsələn, "Sipər" Havadan Müdafiə Sistemi kimi. Bunlar daha uzunmənzilli silahlardır. Alt mərhələdə ALKA sistemində olduğu kimi, elektromaqnit enerji, lazer və qarışıq sistemlər də mövcuddur. İndiyədək mövcud olan Havadan Müdafiə Sistemlərinin köhnəldiyini qeyd edən Dəmir əlavə edib ki, hazırda ölkənin bu sahədəki boşluqların doldurulması prosesi gedir.




### Təyyarədaşıyan gəmi

**İ.Dəmir ölkəsinin ilk təyyarədaşıyan gəmisi olan "TCG Anadolu"dan da söz açıb. Bildirib ki, əslində bu gəminin inşasına başlananda layihədə hovuzlu desantçıxarma gəmisi nəzərdə tutulmuşdu.**

"Daha sonra, gəminin tikintisi gedərkən fikirləşdik ki, bir "F-35" təyyarəsini də bu gəmiyə yerləşdirə bilərikmi? Düzdür, hazırda "F-35"lə bağlı məsələ hər kəsə aydındır və əslində, Türkiyənin bu təyyarələrə ehtiyacı da yoxdur. Bu vəziyyətdə "TCG Anadolu"da orijinal olaraq helikopterlər yerləşdirmək qərara alındı. Hansısa dik qalxıb-enən təyyarələrin gəmiyə inteqrasiya edilməsi fikri də vardı, amma gəmilər üçün nəzərdə tutulan təyyarələrin bazarda çeşidi çox məhduddur. Eyni zamanda, gəminin təyyarələr üçün o qədər də əlverişli olmayacağını da düşündük və qərara gəldik ki, burada təyyarələrin əvəzinə ən müasir "SİHA"ları yerləşdirək. "Bayraktar TB3" kimi bu seriyanın ən mükəmməli olan SİHA-ları məhz bu gəminin xarakterinə əsasən hazırlamağa qərar verdik. Yəni "Bayraktar TB3" şaquli qalxıb-enmə xüsusiyyətinə malik olduğundan gəmidə yerləşdirilməsi məqsədəuyğun olardı", - Müdafiə Sənayesi İdarəsinin rəhbəri bildirib.

Heç kimə sirr deyil ki, hazırda Türkiyənin ana hədəflərindən biri də yerli və milli imkanlarla hərbi təyyarələr istehsal etməkdir. O cümlədən gələcəkdə "TCG Anadolu"nun göyərtəsində yerləşdirilə biləcək təyyarələr də istehsal olunacaq. Sadəcə, gəminin Hərbi Dəniz Qüvvələrinin istifadəsinə verilmə vaxtının gecikdirilməməsi üçün SİHA-larla təchizi nəzərdə tutulur. Təyyarələrin inteqrasiya edilməsi layihəsi də uğurla davam etdiriləcək.

Dəmir qeyd edib ki, hazırda HÜRJET təlim-döyüş təyyarəsinin "TCG Anadolu"ya eniş-qalxış etməsi üçün işlər aparılır. Niyə? Çünki təlim təyyarələri istər quruda, istərsə də dənizdə pilotlar yetişdirmək üçün nəzərdə tutulur.

Türkiyə "TCG Anadolu" ilə kifayətlənəcəkmi? Bəlkə daha böyük və çoxfunksiyalı olacaq ikinci gəmi də sifariş edilməlidir? İ.Dəmir deyir ki, ikinci təyyarədaşıyan gəmi üçün hazırda layihələri yoxdur, amma ola da bilər. Bu, tələbdən asılıdır. Onun sözlərinə görə, Türkiyənin gəmiqayırma sənayesi ikinci, üçüncü və sair sayda təyyarədaşıyan gəmilərin tikintisinə tam hazırdır. "Hesab edirəm, bu müstəvidə heç bir sıxıntımız yoxdur. Hazırda əlimizdəki gəmidə - "TCG Anadolu"da yerləşdiriləcək SİHA sistemlərinin geniş təsirli və meydanda oyun dəyişdirici güc olaraq qəbul edirik", - İ.Dəmir deyir.

*"Polşa Avropa İttifaqının və NATO-nun üzvüdür, əgər onlar "SİHA"larımıza maraq göstəribsə, deməli, etibarlılığına şübhə etmirlər*

### "Bayraqdar"lar

**Bu arada İ.Dəmir günümüzdə dünyada geniş rezonans yaradan "Bayraktar TB2" "SİHA"larından söz açıb. Liviyada, Suriyada, Qarabağda döyüşlərin gedişatını dəyişən bu "SİHA"lara dünyanın fərqli ölkələrində maraq göstərilir.**

O cümlədən, "Bayraktar TB2" "SİHA"lar hazırda Ukrayna, Qətər və Azərbaycanın hava məkanlarının ən yaxşı müdafiəçisidir. "Bununla kifayətlənmirik, Polşaya 24 ədəd "Bayraqtar TB2" "SİHA" satmaq üçün müqavilə imzalamışıq. Nəzərə alaq ki, Polşa Avropa İttifaqının və NATO-nun üzvüdür, əgər onlar "SİHA"larımıza maraq göstəribsə, deməli, etibarlılığına şübhə etmirlər. İstehsalımızın keyfiyyətinə və döyüş üstünlüyünə deyilə biləcək bircə kəlmə belə yoxdur", - müsahib söyləyir.

Bu arada qeyd edək ki, son məlumatlara əsasən, daha bir NATO üzvü olan ölkə - Latviya da "Bayraqtar TB2" almaq üçün hərəkətə keçib və hətta hərbçi mütəxəssislərdən ibarət nümayəndə heyəti Türkiyəyə göndərilib.

"Qərbdəki müttəfiqlərimiz bizə elə hey təzyiq edirdilər. "Patriot" istədik, satmadılar, ərazimizdə terrora qarşı mübarizəyə qalxdıq, silah-sursat satışına yasaq gətirdilər, pulumuzu verib aldığımız mərmidən istifadəyə icazə vermirdilər. "İHA"lar istehsal elədik, kamerasını satmadılar ki, istehsal dayansın. Biz nəinki istehsalı dayandırmadıq, əksinə, kameranı da özümüz istehsal etməyə başladıq. Digər sahələrdə də vəziyyət eyni cürdür. Zatən, belə münasibətlə üzləşəcəyimizi bilirdik, ona görə də 5-6 il əvvəldən ehtiyatımızı görməyə başlamışıq. Nəticəsi də ortadadır: bizə əngəl törətmək üçün satmadıqları istənilən məhsulun eynisini bir neçə həftə ərzində yerinə qoymaq üçün çalışırıq.

Bundan sonra da, xüsusilə strateji və texnoloji sahələrdə əngəllərin olacağını düşünürük və bunlara hazırıq. Hesab edirik ki, bu müstəvidə çəkiləcək xərclər ikinci, üçüncü plana atılmalıdır. Bizim üçün vacib olan dövlətimizin qüdrəti və təhlükəsizliyidir. Buna görə də strateji əhəmiyyətli bildiyimiz hər şeyin üzərində işləyirik. Türkiyənin müstəqil siyasət yürütməsində ən böyük güc müdafiə sənayesidir. Nəzərə alaq ki, Türkiyə artıq heç bir strateji məhsul idxal etmir, əksinə, özü xarici ölkələrə satır", - İ.Dəmir bildirir.

### "Altay" tankları

**Türkiyə Quru Qoşunlarının əsas gücü olacaq "Altay" tanklarına gəlincə, Müdafiə Sənayesi İdarəsinin rəhbəri deyib ki, bu sektorda heç bir maneə yoxdur və işlər öz axarında davam edir.**

Tankların istifadəyə verilməsi üçün motor problemi üzərində iş getdiyini, idxal bazarında seçənəklərin olduğunu bildirən İ.Dəmirə görə, hazırda ən yaxşı seçənək yerli və milli motorlar istehsal etməkdir. "Güc qrupu yerli tank motorunun hazırda test yoxlamaları başlayıb. Yəni yerli motorda çətin yolu başa vurmuşuq, sadəcə, qısa vaxt gözləməliyik. Bu, o demək deyil ki, motor idxal edə bilməzdik. Zatən, idxalla bağlı dövlətlərdən biri ilə müqavilə də imzalanıb.

Alınacaq motorların "Altay" üzərində testinin keçirilməsi zəruridir və bir az gözləmək lazımdır", - deyən Dəmir əlavə edib ki, buna baxmayaraq, hazırda ordunun əlində olan tankların müasirləşdirilməsi prosesi gedir. Məsələn, hazırda Almaniya istehsalı olan "Leopard 2A4" tanklarının müasir döyüş şərtlərinə uyğun şəkildə təchiz etməkdəyik. Bu məqsədlə "Roketsan"ın nəzdində yaradılmış Ballistik Müdafiə Mərkəzində layihələndirilib. İstehsal edilən zireh paketinin seriya istehsalına başlanılıb və bu məhsullar tanklara quraşdırılır.

*✍ Vüsal Tağıbəyli*



**■ "Türkiyənin Mersin əyaləti Polis İdarəsinin kibercinayətlərə qarşı mübarizə şöbəsinin 18 əyalətdə qanunsuz yolla qumar oynayanlara qarşı keçirdiyi əməliyyat nəticəsində 86 şübhəli tutulub". Bu, Türkiyənin Mersin əyaləti Polis İdarəsinin kibercinayətlərə qarşı mübarizə şöbəsinin yaydığı yazılı açıqlamada bildirilir.**

Məlumata görə, bu şəbəkənin 65 milyon lirəlik (7 551 471 dollar) rəqəmsal valyuta platformalarında 190 milyon ( 22 073 530 dollar) lirə pul kütləsini idarə etdiyi müəyyən olunub. Ermənistandan internet saytı quran şübhəlilər 273 nəfərin adına rəqəmsal valyuta hesabı açıb. Onların Ermənistandan qanunsuz mərc, şans və qumar oyunları oynatdıqları təsbit edilib.



**■ Pakistan İslam Respublikasında səfərdə olan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı kontr-admiral Sübhan Bəkirov bu ölkənin Quru Qoşunları komandanı, ordu generalı Qamar Caved Bacva ilə görüşüb.**

Müdafiə Nazirliyindən hafta.az-a bildirilib ki, ordu generalı Qamar Caved Bacva Vətən müharibəsində qazanılan qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Pakistanın Quru Qoşunları komandanı ölkəsinin azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi prosesində və həmin ərazilərdə həyata keçiriləcək bərpa işlərində iştirak etməyə hazır olduğunu bildirib.



**■ 2020-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri koronavirus pandemiyası ilə mübarizə çərçivəsində iqtisadi fəallığın tam və ya qismən məhdudlaşdırılması ilə əlaqədar əlverişli olmayan makroiqtisadi şəraitdə reallaşdırılıb.**

Bu barədə Hesablama Palatasının 2020-ci il dövlət büdcəsinin icrası barədə rəyində deyilir.

Qeyd olunur ki, ötən il dövlət büdcəsinin gəlirlərinə təsir göstərmiş makroqtisadi göstəricilər ümumi daxili məhsulun 4,3 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 2,6 faiz, neft sektoru üzrə 7 faiz, əsas kapitala yönəlmiş vəsaitlərin 8,3 faiz azalması, eləcə də 2,8 faiz səviyyəsində istehlak qiymətləri indeksi olub. Eyni zamanda Azərbaycanın ixracı 30,6 faiz, idxalı isə 21,5 faiz azalıb.



**■ Bilgəh, Novxanı, Mərdəkan, Şüvəlan, Goradil, Zuğulba, Nardaran və Buzovna çimərliklərindəki dəniz suyunun keyfiyyət göstəriciləri norma daxilində müəyyən edilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, çimərlik mövsümünün başlanması ilə əlaqədar Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin və Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən çimərlik ərazilərindəki dəniz suyundan nümunələr götürülüb, mikrobioloji və fiziki-kimyəvi təhlillər aparılıb. İdarənin rəisi Nazim Mahmudov bildirib ki, aparılan birgə monitorinq və analizlərin nəticələrinə görə, Bilgəh, Novxanı, Mərdəkan, Şüvəlan, Goradil, Zuğulba, Nardaran və Buzovna çimərliklərindəki dəniz suyunun keyfiyyət göstəriciləri norma daxilində müəyyən edilib.



**■ Çində 26 il əvvəl uşaqkən oğurlanmış şəxs yenidən valideynlərinə qovuşub. Hafta.az xəbər verir ki, kədərli ailə hekayəsinin xoşbəxt sonu Şenyan şəhərində baş verib.**

Hekayə isə belə başlayıb: 1995-ci ildə Quyyan şəhərindəki parkda oynayan 7 yaşlı Siao Cieni və onun bir neçə dostunu naməlum şəxslər aldadaraq qaçırıblar. Valideynlərin uzun müddət axtarışları nəticə verməyib. Çində itkin düşən ailə üzvlərinin tapılması üçün son illər ölkə səviyyəsində aparılan xüsusi əməliyyat zamanı Siao Cienin DNK analizi götürülüb. Ailə üzvlərini axtaranların DNK analizlərinin nəticələrinin üzləşdirilməsi prosesində Siao Cienin valideynləri müəyyən olunub. Uzun illərdən sonra Siao Cie valideynləri ilə Şenyan şəhərində görüşüb.



**■ Gürcüstanda iyunun 9-dan ölkə daxilində nikah qeydiyyatının şənlik mərasimini keçirmə xidməti bərpa olunub. Bu barədə Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurası qərar qəbul edib.**

Qərara əsasən evlənmək istəyən cütlük birgə ərizə təqdim etmək üçün ədliyyə evlərinə, icma mərkəzlərinə, ərazi idarələrinə, nikah evlərinə ziyarətini əvvəlcədən müvafiq qurumlarda elektron qeydiyyatdan keçməlidir. Nikaha daxil olmaq istəyən şəxslər və onları müşayiət edənlər (10 nəfərdən çox olmayaraq) qeydiyyat məkanında maskadan istifadə etməlidirlər. Xatırladaq ki, ölkədə koronavirusun yayılmasının qarşısını almaq üçün elan edilmiş fövqəladə vəziyyət səbəbindən nikah evlərində (məkanlarda) şənlik mərasimlərinin keçirilməsi müvəqqəti dayandırılmışdı.

# Ermənilər əsirlərin gözlərini kor edib - ittiham aktı

## Məhkəmə

***Dünən Yasamal Rayon Məhkəməsinin inzibati binasında Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyevin sədrliyi ilə Birinci Qarabağ Müharibəsində azərbaycanlı əsirlərə işgəncə vermiş və digər cinayətlər törətmiş erməni hərbi cinayətkarları Mkrtçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttiham aktında göstərilir ki, Mkrtçyan Lüdvik Birinci Qarabağ Müharibəsi dövründə azərbaycanlı əsirləri işgəncələr altında saxlayıb.***



Xosrovyan bir neçə erməni ilə cinayət əlaqəsinə girərək, Kazımov Həbib Muxtar oğlunu əsir götürərək baş və bədən nayihəsinə ağır zərbələr yetirərək işgəncə verib Mkrtçyan Lüdvik Kəlbəcərdə Murovdağda 1994-cü ildə əsir düşən Hacıyev Elman Rəhman oğlunu Xocavənd rayonunun Ağbulaq kəndi istiqamətinə apararaq orada ona işgəncə verib, ağır işlərə cəlb edib, ac saxlayaraq ona avtomat qundağı ilə müxtəlif xəsarətlər yetirib.

Mkrtçyan Lüdvik Alyoşa Xosrovyanla birlikdə bir qrup erməni ilə cinayət əlaqəsinə girərək 1993-cü ildə Ağdamın Cəbrayıllı kəndində əsgər Əliyev Famil Heydərəli oğlunu əsir götürüləndən sonra Şuşa həbsxanasında ona ağır işgəncələr verib. Lüdviq Mkrtçyan həmin vaxt Şuşa həbsxanasında dəmir və taxta parçaları ilə yaralı əsgərə xəsarətlər yetirərək acsusuz saxlayıb.

O, 1994-cü ildə Ağdamda əsir düşən əsgər Hüseyn Cavid Alı oğlunu Şuşa həbsxanasında 1 il saxlayaraq şaxtalı havada qarın altında işgəncələr verib, üzərinə soyuq su töküb, baş və göz nayihəsinə ağır zərbələr vurub, işgəncə verib. Nəticədə Cavid Hüseyn Iki gözünün görmə qabiliyyətini itirib.

Bununla yanaşı, Mkrtçyan Lüdvik 1994-cü ildə Kəlbəcərdə əsir düşən əsgər Babayev Kamil İdris oğlunu Şuşa həbsxanasında baş və bədəninə avtomat qundağı ilə mütəmadi vuraraq xəsarətlər yetirib, ac-susuz saxlayıb, müxtəlif üsullarla işgəncələr verib.

İttiham aktına görə, digər təqsirləndirilən Alyoşa Xosrovyan Kəlbəcərdə Ömər aşırımında əsir düşən əsgər Abduləliyev Yaşar Abduləli oğlunu Kəlbəcərdəki evlərin birində qanunsuz olaraq saxlayaraq onu müxtəlif vaxtlarda və müxtəlif alətlərə döyüb xəsarətlər yetirib. Alyoşa Xosrovyan erməni qruplaşması ilə birləşərək 1994-cü ildə Füzuli rayonunda gedən döyüşlərdə yaralanaraq əsir düşən Həsənov Zahidi qanunsuz saxlayaraq əsirlikdə olduğu müddətdə ağır xəsarətlər yetirib, qışda üstünə soyuq su tökərək döyüb, ac saxlayıb.

Təqsirləndirilən şəxs 1994-cü ildə Füzuli rayonunun Alıxanlı kəndində gedən döyüşlərdə yaralanan əsgər Qafarov Rauf Şəmsəddin oğlunu əsir götürüb 1 il yumruq və təpiklə vurub, siqaret kötüklərini bədənində söndürüb ağır işgəncə verib. Alyoşa Xosrovyan 1994-cü ildə İslamov Elşən Sabir oğlunu qanunsuz saxlanılan vaxtlarda Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin inzibati binasında tərcüməçi kimi iştirak edərək Elşənə işgəncələr verib, onu Ermənsitan vətəndaşlığını qəbul etmədiyi üçün ağır işgəncələrə məruz qoyub.

Azərbaycanlılara işgəncə verən Alyoşa Xosrovyan, həmçinin ermənilər tərəfindən yaralı vəziyyətdə əsir götürülən Bərdə sakini Vəliyev Qərib Rövşən oğluna qarşı da amansız davranıb. O, azərbaycanlı əsirə təzyiqlər göstərərək boynunu qırmaqla hədələyib, dizi ilə döş qəfəsinə müxtəlif zərbələr vurub, avtomat silahının qundağı və ağır dəmir parçaları ilə onu vurub, azərbaycanlı əsiri yerə yıxaraq ayağı ilə sifətini sıxıb, başını və sifətini dəfələrlə soyuq suda saxlayıb, nəfəs alması çətinləşənə qədər suda saxlayıb, boğmağa cəhd edib.

Alyoşa Xosrovyan 2020-ci il 15 oktyabrda əsgər Əsgərov Firavan Xanbala oğlunu qətlə yetirib. Həmin gün o, Azərbaycan Ordusu tərəfindən saxlanılıb. İttiham aktına görə, Xosrovyan Alyoşa qabaqcadan əlbir olan bir qrup cinayətkar şəxslə birləşərək qanunsuz olaraq silahlar əldə edib. O, Birinci Qarabağ Müharibəsində Dağlıq Qarabağ bölgəsində yaşayan bir qrup erməni silahlı birləşmənin üzvləri ilə birləşərək, 1993-cü ildə Qubadlı rayonunun Əliquluuşağı kəndində baş nayihəsindən yaralanan Kazımov Həbibi 1 il müddətində avtomat silahın qundağı, ağır dəmir parçaları ilə döyərək, ac-susuz saxlayaraq işgəncə verib.

Alyoşa Xosrovyan Mkrtçyan Lüdvik və digərləri ilə birlikdə 1994-cü ildə əsir düşən Əliyev Famil Heydərəli oğluna Şuşa həbsxanasında saxlanarkən ağır xəsarətlər yetirib, ac-susuz saxlayıb. Xosrovyan Mkrıtçyan və digərləri ilə Ağdam rayonunun Güllücə kəndində 1994-cü ildə əsir düşən yaralı əsgər Hüseyn Cavid Alı oğlu ilə Şuşa həbsxanasında bir il amansız davranıb, şaxtalı havada qarın altında xlorlu soyuq suda saxlayıb.

1994-cü ildə Kəlbəcər rayonunun Susuzluq kəndində əsir düşən əsgər Babayev Kamil İdris oğlu ilə qəddar davranan A. Xosrovyan ona mütəmadi olaraq avtomat və dəmir parçaları ilə xəsarətlər yetirib. Bundan başqa o 1994-cü ildə Füzuli rayonunun Aşağı Seyidəhmədlikəndində gedən döyüşlərdə qarın nayihəsindən yaralanan əsgər Həsənov Zahid Əsgər oğluna hər gün işgəncələr verib, baş nayihəsinə dəmir və ağac parçaları ilə xəsarətlər yetirib, ac saxlayıb.

Ağdam rayonunun Güllücə kəndində çiyin nayihəsində yaralanan əsir düşən Rzayev Zaur Vahid oğlu da Xosrovyanın işgəncələrinə məruz qalıb. Əsir əsgər Ağbulaq kəndindəki evlərdən birində saxlanılarkən ağır işlərə cəlb edib. Xosrovyan onu döyüb, xəsarətlər yetirib, ayağındakı yaraları basaraq işgəncələr verib.

Xosrovyan ötən il oktyabrın 3-də Cəbrayıl şəhərinin yaxınlığında Azərbaycan Ordusunun hərbçiləri tərəfindən saxlanılıb. İttihama münasibət bildirən Lüdvik Mkrtçyan əsir və girovlara işgəncə vermədiyini bildirib. A.Xosrovyan isə özünü ittihamlarda qismən təqsirli bilib və 2020-ci il oktyabr ayında qanunsuz olaraq Azərbaycan sərhədini keçdiyini etiraf edib.

Prosesdə təqsirləndirilən şəxslərə ifadə vermək təklif olunub. Hər iki şəxs indiki mərhələdə ifadə verməyib bildirib ki, onlar zərərçəkmişlərin ifadəsindən sonra ifadə verəcəklər.

Daha sonra prosesdə zərərçəkmişlər ifadə verib. Onlar bildiriblər ki, təqsirləndirilən hər iki şəxs onlara əsirlikdə amansız işgəncələr verib.

Növbəti məhkəmə prosesi iyunun 16-na təyin edilib.

✍ ***Azad Əliyev***

### Kamil Babayev, zərərçəkmiş şəxs:



***- Əsirlikdə olduğumuz zaman ermənilər bizə ağır işgəncələr veriblər. Bir ildən artıq müddətdə əsirlikdə olmuşam.***

Lüdvik Mkrtçyan və Alyoşa Xosrovyan mənə ağır işgəncələr veriblər. Əsirlikdə olan zaman Şuşada, Xankəndidə olmuşam. Əsirlikdə bizə çox işgəncələr veriblər. Hazırda məhkəməsi gedən ermənilər bizə qarşı çox qəddarcasına rəftar ediblər. Zaman gəldi, haqq-ədalət öz yerini tapdı, indi onlar öz çirkin əməllərinə görə cəzalarını alacaqlar.

### Cavid Hüseyn, zərərçəkmiş şəxs:



***- Şuşa həbsxanasının qarşısı buz bağlamışdı, oranı bizə təmizlətdilər, məni orada dəmir parçası ilə döyüb qarın altında basdırdılar. Təqsirləndirilən şəxslər məhkəmədə özlərini məzlum göstərsə də, Şuşa həbsxanasında cəllad idilər. Hər ikisi Azərbaycan dilini bilir.***

Mən 1994-cü ildə Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərdə əsir düşmüşəm. Həmin gün bizi Ağdamda saxladılar, orada bizi öldürmək istəyirdilər. Sonradan onlara məlumat gəldi ki, bizi dəyişəcəklər. Əvvəlcə Xankəndinə aparıb döydülər, daha sonra Şuşa həbsxanasına apardılar. Orada dəmir boru ilə başımıza vururdular. Qış idi, güclü qar yağmışdı. Şuşa həbsxanasının qarşısı buz bağlamışdı, oranı bizə təmizlətdilər, məni orada dəmir parçası ilə döyüb qarın altında basdırdılar.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları gəlmişdi, onlar vəziyyətimi görməsin deyə məni qalaya atdılar. Lüdvik Mkrtçyan və Alyoşa Xosrovyan əllərimi bağladı, həbsxananın rəis müavini məni döyməyə başladı. Sual verdilər ki, Qarabağ bizimdir, yoxsa sizin? Cavab verdim ki Qarabağ bizimdir.

Dubinka ilə elə döydülər ki, gözüm çıxdı. Sonra yenə Beynəlxalq Qırmızı Xaç Komitəsi bizə baş çəkməyə gəldi. Bu vəziyyətimi görməmək üçün məni karsa saldılar. Ermənilər əsirlərə həm də mənəvi işgəncələr verib. Şuşa həbsxanasında olanda uşaq bağçalarından uşaqları gətirib bizi onlara göstərib dedilər ki, bunlar türkdür, bizim düşmənlərimizdir, onlara yaxın getməyin, sizi öldürərlər. Onlar uşaqları nasist kimi böyüdürdülər. Bizi müxtəlif alətlərlə döyürdülər. Həbsxanada olanda bunlar türməyə qız gətirirdilər. Qızların gözləri qarşısında bizi döyürdülər və bu hərəkətlərini qızlara göstərməklə fəxr edirdilər. Mkrtçyanın əlinin üstündə LMN yazısı var idi. Bu, baxış zamanı da təsdiqləndi.

### Qərib Vəliyev, zərərçəkmiş şəxs:



***- Erməni əsirliyində olarkən Lüdvik Mkrtçyan məni bir gün axşama qədər döydü, işgəncələr verdi. Lüdvik Mkrtçyan mənə qarşı amansız işgəncələr verib. 1999-cu ildə girov götürülmüşəm. Tapqaraqoyunlu kəndi istiqamətində heyvan otararkən erməni hərbçilər tərəfindən girov götürüldüm.***

Məni Şuşa həbsxanasına apardılar. Orada ayrı-ayrı şəxslər mənə ağır işgəncələr verdilər. Lüdvik Mkrtçyanı Laçın rayonu ərazisində hərbi formada görmüşəm. O, Azərbaycan dilindən tərcüməçi kimi işləyirdi. Çatan kimi sinəmə təpiklə vurdu, işgəncələr verirdi. Kabinetində mənə 3 şillə vurdu, kabinetdən çıxıb kənarda oturdum. Yaxınıma gəlib məni dizi ilə vurub başıma torba keçirdi və başladı mənə amansız işgəncələr verməyə. Bir gün axşama qədər məni döydü. Bizdən yaxınlıqdakı hərbi hissənin yerini soruşurdu və tələb edirdi ki, mən kəşfiyyatçı olduğumu boynuma alım.

Azərbaycan dilində təmiz danışa bilir, çünki o bizimlə Azərbaycan dilində danışırdı. 2 ay əsirlikdə qaldım. Beynəlxalq Qırmızı Xaç Komitəsi məni nəzarətə götürəndən sonra işgəncələr dayandı. Qayıdandan sonra 1 ay müddətinə müalicə olunmuşam. İbtidai istintaqda Lüdvik Mkrtçyan məni tanıyıb. Birinci dəfə üzləşmədə salam verdim, o məni tanıdı. İkinci üzləşmə zamanı məni tanıdığını inkar etdi. Mən isə onu görünüşündən və səsindən tanıdım.

# Ağdamım - sınmayan qalib qalam...



***“Güntəkin xanım, Ağdama getmək istəyərsinizmi?” Telefonda eşitdiyim səs məni silkələdi: “Əlbəttə”. “Nə vaxt və harada görüşürük?”. “Səhər saat 03:30-da, AzTV-nin qabağında olun”. ...Sanki yuxudan ayılıram. Özümü ələ almağa çalışıram. Yata biləcəyəmmi? Əlbəttə, yox! Yatmaq olmaz, birdən “iraq olsun” gecikərəm...***

31 may 2021-ci il. 28 ildə birinci dəfədir ki, Dördyoldan Ağdama tərəf irəliləyirəm. Hər tərəfdə dağıntı, kol-kos, vəhşi millətin istehkam qalıqları, minalanmış ərazilər... Hələ ki, heç nə tanış gəlmir, birdən “Bura Uzundərədir”, - deyə qışqırıram. Bu da körpü, dağılsa da, bir az tanımaq olur buranı. Mən gözləyirəm ki, indi Ətyeməzli, 50 nömrəli məktəb, böyük avtovağzalımızdan, heç olmasa, bir şey görəcəyəm, amma əfsuslar olsun ki, heç nə yoxdur!

Aha, məscidimiz görünür, şükür Allaha, oradan evimizə gedə bilərik. Məscidin qabağından hara gedəcəyimi bilmirəm. Dəhşətli bir görüntüdür. Küçələr sanki kiçilib, hər tərəf dağılıb, istiqaməti tapa bilmirəm. Vaxtilə Ağdam Şəhər Sovetində işləmiş Zülfü müəllim bizi Mədəniyyət evinin yanına aparacağına söz verir. “Mədəniyyət evini tapsaq, evimizi də tapacağam”, - deyə fikirləşirəm. “Hə, bax, bura restorandır, bura bulvardır, bura “beşmərtəbə”, bu da Mədəniyyət evi”, - Zülfü müəllimin səsi eşidilir. Donub qalmışam. Əslində, bir neçə daş topası, kol-kosdan başqa heç nə yoxdur. Çox böyük axtarışdan sonra Səmayə xalanın çörək dükanı olan ərazini təxmin edirik. 100 metr də irəliləsək, evimiz olmalıdır burada. Yol nəsə bağlıdır, ərazi minalanmış ola bilər! Təsəvvür edirsinizmi?

Biri var idi, biri yox idi... Məşədi Abbas küçəsində qarşısında gülçardaqlı ikimərtəbəli evimiz var idi. Fikirləşirdim ki, heç olmasa atamın əkdiyi ağaclardan nəsə qalıb. Heç olmasa bir xatirə, bir yadigar, bir iz. Heç nə tapa bilmədim.

Vaxtilə Natavan qızlar bayramına getdiyimiz imarət də dağıdılıb, bir neçə tikili qalıb. Gözəl əsərlərə tamaşa etdiyimiz Ağdam Dram Teatrının bir neçə divarı qalıb. “Bu binanı Hirosimadakı kimi saxlamaq lazımdır”, - deyə düşünürəm. Şərq üslubunda tikilmiş yapon məbədlərini xatırladan Çay evimiz də mütləq bərpa olunmalıdır, çünki o, Ağdamın simvollarından biri idi. Həmçinin Çörək Muzeyi də bərpa olunmalıdır.

Xəyallar içərisində dağıdılmış şəhərimə tamaşa edirəm, göz yaşlarımı saxlaya bilmirəm. Bu bulvarda uşaq vaxtı yay düşərgələrinə gedirdik. “Qarabağ bülbülləri”nin yaradıcısı Murad Rzayev mənə söz də vermişdi, Cavidin “Qız məktəbində” şerini demişdim. Yamyaşıl bulvarımız tikanlı, qanqallı bir xarabazara çevrilib.

“İndi isə Şahbulağa gedəcəyik”, - Ayşən xanımın səsi məni, sanki yuxudan oyadır. Axır ki, doğma Ağdamımı xatırladan bir yerə gəlib çıxıram. Möhtəşəm qala məni “yıxılmağa” qoymadı. Heç olmasa bura qalıb. Buz kimi suyu ilə, yaşıllığı, gül-çiçəyi ilə sanki yarama məlhəm olur. Ağdamımız bərpa olunmağa başlayıb. Doğma şəhərimdə gələcəkdə həm Avropa, həm də Şərq üslubunda olan binalar göz oxşayacaq, kanallar çəkiləcək, süni salınmış göldə qayıqlar üzəcək, çox böyük yaşıllıqlar salınacaq, hətta tramvay və velosiped yolu da çəkiləcək. Əlbəttə, bütün bunlar çox gözəl layihələrdi. Bir məsələnin də həllini tapacağına əminəm. Bütün ağdamlılar kimi məni də narahat edən məsələlərdən biri Qarağacı qəbiristanlığı ilə bağlıdır. Bilirik ki, Ağdamın, hətta cansız cəsədlərindən belə qorxan ermənilər qəbiristanlığını da vəhşicəsinə dağıdıblar. Hamımızın orada doğmaları uyuyur. Bu ərazinin ziyarətgaha çevrilməsini arzulayıram. Yəqin ki, əlaqədar qurumlar bu məsələni də həll edəcəklər....

> *Doğma şəhərimdə gələcəkdə həm Avropa, həm də Şərq üslubunda olan binalar göz oxşayacaq, kanallar çəkiləcək, süni salınmış göldə qayıqlar üzəcək, çox böyük yaşıllıqlar salınacaq*

Mərd sərkərdəmiz, Ali Baş Komandanımızın rəhbərliyi ilə Ağdamı tez bir zamanda dirçəldəcəyik. Buna heç şübhəm yoxdur. Ağdamla vidalaşıram... Sanki bir canlı ilə söhbət edirəm. Sənin səhralığa çevrilmiş torpağını övladların göz yaşları ilə sulayacaq, yaranı saracaq, torpağını öpəcək. Bizi əfv edəcəksənmi????

✍ ***Güntəkin Məmmədova,***
*Prezident mükafatçısı*



**■ İsveçrənin Cenevrə şəhəri iyunun 16-da ABŞ Prezidenti Cozef Bayden ilə Rusiya Prezidenti Vladimir Putin arasında keçiriləcək görüşə hazırlaşır.**

Cenevrə gölü sahilində görüşün planlaşdırıldığı məkanın ətrafındakı parklar iyunun 8-dən 18-dək ictimaiyyətə bağlı elan edilib. Rəsmi qurumlar görüşün harada keçiriləcəyinə dair açıqlama verməsələr də, həmin ərazidə təhlükəsizlik tədbirlərinin görülməsi mətbuatın məkanla bağlı ehtimallarını gücləndirib. Hesab edilir ki, park ərazisində yerləşən “Villa La Grange“ və “Hotel Parc des Eaux-Vives” nümayəndə heyətlərinin yerləşməsi və danışıqların aparılması üçün münasib məkan olaraq müəyyən edilib.



**■ Ağdam rayonunun işğaldan azad edilən 3300 hektar əkin sahəsi mina və partlamamış sursatlardan təmizlənib.**

Bu barədə hafta.az-a Ağdam Rayon İcra Hakimiyyətindən məlumat verilib. Məlumatda qeyd edilir ki, təmizlənmiş ərazilərin 2 190 hektarında buğda əkilib: ”Hazırda rayon ərazisinin mina və partlamamış sursatlardan təmizlənməsi prosesi davam edir. Əkin sahələri ilə yanaşı, digər ərazilərdə də təmizlənmə əməliyyatları keçirilir”. Məlumatda bildirilir ki, təmizlənmiş ərazilərdə əkilən buğda sahələrinin biçilməsinə hazırlıq işləri görülür: ”Hələlik həmin ərazilərdə biçin başlamayıb. Yaxın vaxtlarda əkilən ərazilərdə biçinə start veriləcək”.



**■ Bu ilin yanvar-may aylarında əlilliyi olan şəxslərə 18 minə yaxın reabilitasiya vasitəsi verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, hesabat dövründə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi əlilliyi olan şəxsləri 500-ə yaxın təkərli oturacaqla təmin edib.**

Bu kateqoriyadan olan şəxslərə, həmçinin 544 aşağı və yuxarı ətraf, süd vəzi protezi, 473 aşağı və yuxarı ətraf ortezi, 5812 müxtəlif reabilitasiya vasitəsi, 59 bel və boyun nahiyəsi üçün korset verilib. Eləcə də, 643 cüt protez ayaqqabı, 1042 cüt ortopedik ayaqqabı, 1061 qoltuqaltı və dirsəkaltı ağac, 1016 ədəd əsa və s. təqdim olunub.



**■ ABŞ prezidenti Co Bayden “TikTok” və “WeChat” tətbiqlərinin ölkə ərazisində bağlanmasına dair sələfi Donald Trampın imzaladığı müvafiq fərmanları ləğv edib.**

Bununla yanaşı, Ağ ev Çinin nəzarət etdiyi həmin tətbiqləri milli təhlükəsizliyə təhdid olaraq gördüyünü də açıqlayıb. Belə ki, prezident C.Baydenin fərmanında həmin tətbiqlər vasitəsilə fərdi məlumatların toplana biləcəyilə bağlı mümkün təhlükə qeyd olunub. Fərmanda federal hökumətə milli təhlükəsizlik, xarici siyasət, iqtisadi hədəflər, o cümlədən Amerikanın başlıca dəyərləri və təməl azadlıqları baxımından hər hansı risk olub-olmadığını araşdırmaq çağırışı yer alıb. Xatırladaq ki, ötən yay prezident Tramp ölkənin internet provayderlərinə hostinq servislərində adıçəkilən mobil tətbiqləri açmağı qadağan edən fərman imzalamışdı.

**■ Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) pandemiya dövrünün tələblərinə, bu sahədə müvafiq qanunvericiliyin icrasına, həmçinin yeni növ koronavirusun (COVID-19) profilaktikasına dair Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin icrasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində reydləri davam etdirir.**

Agentlikdən hafta.az-a verilən məlumata görə, nəzarət tədbirləri çərçivəsində 2021-ci il iyunun 8-də ölkə üzrə 420 ictimai iaşə obyektində 733 monitorinq keçirilib. Monitorinqlər zamanı 16 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.



**■ Rusiyanın Soçi şəhərində 61 yaşlı erməni Vardan Koçyan məhkəmə icraçılarına odlu silahdan atəş açıb. V. Koçyanla onun qaraj kooperativindəki qanunsuz tikilmiş mağazanı sökməyə gələn məhkəmə icraçıları arasında mübahisə düşüb.**

Nəticədə V. Koçyan odlu silahdan atəş açaraq 35 yaşlı Andronik Makivasyan və 36 yaşlı Albert Azyazyanı öldürüb.

“Baza” teleqram kanalı V. Koçyanın atəş açdığı məhkəmə icraçılarının sayının üç nəfər olduğunu, lakin bir nəfərin qaçaraq həyatını qurtardığını yazıb. V. Koçyan polis tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Dərdlərə dərmandı tut...

## Menyu

**Ləzzətli və sevilən yay meyvəsi olan tut aprel və may aylarında çiçək açan ağacların bəhrəsidir. O, həmçinin ölkəmizin yerli iqlim şəraitinə uyğun olub, protein, mineral və dəmir tərkibi ilə xeyli zəngindir. Yarpaqları, meyvəsi və ağacı ilə faydalana biləcəyimiz bu meyvə olduqca möcüzəvi bitki hesab olunur. Qurusu da təzə tut qədər şəfalı olduğundan, o, başqa mövsümlərdə də əlçatandır. Quruluş etibarilə qabıqsız formadadır və bu səbəbdən həssasdır, çox yuyulduqda, yaxud isti havalarda qaldıqda tez xarab olur. Xüsusilə də ağacdan toplandıqdan sonra soyuducuda saxlanılmalıdır. Ən çox rast gəlinən növləri isə ağ və qara tutdur.**



Paytaxt küçələrində yolboyu tut ağaclarına addımbaşı rast gəlmək mümkündür. Tut, həmçinin qızdırmadüşürücü xüsusiyyətə də malikdir. Tərkibi "A" və "C" vitaminləri ilə zəngin olduğundan, immun sistemini yüksəltməyə xidmət edir.

Hafta.az-ın əməkdaşı mövsümün sevilən meyvəsi - tut haqqında yerli satış obyektlərində araşdırma apardı.

### Qiymətlər

Hazırda bazarlarda və pərakəndə satış yerlərində daha çox satılan Maştağa tutudur. Ağ və qararəngli, iki çeşidi ilə piştaxtaları bəzəyən meyvənin 1 kiloqramı 2-3 manatdan başlayan qiymətlərlə müştərilərə təklif edilir. Xartutun isə qiyməti baha - 1 kiloqramı 6 manatadır. Əgər bir qədər israr etsəniz, satıcılar qiymətlərdə güzəştə getməyə də hazırdır. Satıcıların əksəriyyəti günboyu gələn bütün tutların axşama qalmadan satılıb-qurtardığını söylədi.

■ **"8-ci Kilometr" bazarında satıcı işləyən Nabat xala deyir ki, meyvə həm yerli, həm də ki, təzə və keyfiyyətlidir. Elə bu səbəbdən, müştərisi var:**

"Xartutun dadı o birilərindən daha yaxşıdır. Onu alan az miqdarda, ancaq yemək üçün alır. Bu tut həm də bol vitaminlidir. Ağ və qara tutu isə elə olur ki, kiloqramlarla satıram. Mürəbbəsi dadlı, bəhməzi də şəfalıdır".

Alıcılar meyvəyə olduqca maraqlı görünürdü. Hiss edilir ki, tutun mənşəyindən bir qədər ehtiyat edirlər. Meyvə ilə maraqlanan paytaxt sakini deyir ki, qorxuram, birdən aldığım tut yolboyu gördüyümüz ağaclardan yığılmış olar:

"İndi kimi dindirirsən, deyir həyətimin meyvəsidir. Di gəl, gecə ilə magistral yolların üzərindəki tut ağaclarını çırpıb, səhər də həmin meyvəni satışa çıxaranlar var. Ona görə nə yalan deyim, bir qədər ehtiyat edirəm".

### Mətbəxdə yeri

■ **Elə təmizlik demişkən, görəsən, bu həssas və qabıqsız bitkinin yanlış yuyularaq istifadə edilməsi nələrə gətirib çıxarır? Bu və digər suallarımızı isə qida texnoloqu Ağa Salamov cavablandırır. Mütəxəssis tutun mətbəximizdəki rolunu xüsusi vurğuladı:**

"Təbii ki, belə faydalı bitki bolçeşidli mətbəximizdə yüksək qiymətləndirilib ondan müxtəlif növ təamlar hazırlanır. Tutdan milli mətbəximizdə cem və mürəbbə bişirmək mümkündür. Onun qurusu da olduqca faydalıdır. Çay içərkən şəkəri əvəz edə biləcək əla vasitədir".

> "Dərin dondurucuda saxlanılan tut istehlak edilməzdən öncə mütləq şəkildə 5 saata qədər normal soyuducuda qalmalıdır



**Ağa Salamov,**
texnoloq

Ekspertin sözlərinə görə, tut mürəbbəsi hazırlayan zaman, adətən, doğru bildiyimiz bir neçə yanlışı edirik. Bunlardan biri də yuyan vaxt səhlənkarlıq etməkdir:

"Tut tər-təmiz yuyulmalıdır. Nəzərə alsaq ki, ağacda meyvənin üzərinə quşlar, həşəratlar qonur. Həmçinin magistral yolların üzərindəki ağaclara maşınların ziyanlı tüstüsü, yerdən qalxan toz-torpaq və müəyyən bakteriyalar hopa bilir. Buna görə də həm mürəbbə, həm də doşab hazırlayan zaman tut yaxşıca yuyulmalıdır".

Düzgün saxlanma qaydasına gəldikdə, A.Salamov bildirdi ki, tut soyuducuda +2 -4 dərəcədə 3 gün qala bilir:

"Təbii ki, üstü bağlı şəkildə qalmalıdır. Dərin dondurucuda isə üzərini kip bağlayıb, hətta qışa belə saxlamaq olar. Yaxşı olardı ki, tut qışa qurudularaq saxlanılsın. Dərin dondurucuda saxlanılan tut istehlak edilməzdən öncə mütləq şəkildə 5 saata qədər normal soyuducuda qalmalıdır". Qida texnoloqu tutun bilmədiyimiz bir neçə faydasını da bizlərlə bölüşdü:

"Həm ağ, həm də qara tut maddələr mübadiləsini sürətləndirir, həzmi yaxşılaşdırır. Tərkibi liflə zəngindir. Eyni zamanda tut çox yaxşı qanartırıcıdır. Ürək-qan-damar sistemi, qaraciyər, böyrəklərin fəaliyyətinə inanılmaz dərəcədə yaxşı təsir göstərir. Bundan başqa, qara tutda gənclik sirləri gizlənir. Bu da tərkibi zəngin olan maddələr ilə əlaqədardır. Bu maddə, həmçinin tuta bənövşəyi rəng verən piqment də sayılır".

### Doşabın faydaları

**El arasında bəkməz deyə bildiyimiz tutdan hazırlanan bu möcüzəvi vasitə başdan-başa bir mineral qaynağıdır.**

Əgər bənizi solmuş, qanı az olan birisini görsəniz ona gündə 3 dəfə yeməkdən əvvəl 1 xörək qaşığı bəkməz içməsini söyləyin və 15-20 gündən sonra həmin insanın necə dəyişdiyini görəcəksiniz. Təsəvvür edin ki, 1 xörək qaşığı tut bəkməzini içmək 1 stəkan tut yeməyə bərabərdir, yəni 1 stəkanın içindəki minerallar 1 xörək qaşığına yığılmışdır.

Bəkməz qan azlığı, soyuqdəymələrdə, bronxitlərdə (çox yaxşı bəlğəmgətiricidir), qaraciyər xəstəliklərində, halsızlıqda, immunitet zəifliyində, sümük əyilmələrində və əriməsində (kalsium çatışmazlığında osteoporoz), ağız-boğaz yaralarında (doşab ağızda bir müddət saxlanılır, sonra udulur), tut bəkməzində sink çox olduğunda prostat problemi olanlar üçün çox faydalıdır. Bəkməz böyüməkdə olan uşaqlarımız üçün də mükəmməl qidadır, çünki uşaqların minerallara daha çox ehtiyacı vardır. Bəkməz qan damarlarının içini yağlardan təmizləyir, bununla da ürək və qaraciyərin daha yaxşı işləməsinə şərait yaradır. Qeyd edək ki, Azərbaycanda doşabı həm də xurma və üzümdən hazırlayırlar. Lakin digərləri ilə müqayisədə tut bəkməzi çox istifadə olunan və belə deyək bəkməzlərin şahıdır. Ana südünü artırır, böyrək və sidik yollarının həm daş xəstəliyində, həm də iltihabi xəstəliklərində faydalıdır, əsəbləri sakitləşdirir, uşaqlarda beyin inkişafını sürətləndirir, mədə-bağırsaq yaralarında çox faydalı olmaqla yanaşı, ağciyər xəstəliklərində də çox faydalıdır. Bəkməzi həm su ilə qarışdırıb içə, həm də gündə 3 dəfə yeməkdən əvvəl 1 xörək qaşığı içə bilərsiniz.

Tut bəkməzini digərlərindən fərqləndirən isə onun spesifik iyi və dadıdır. Mütəxəssislər tut bəkməzini rənginə görə də fərqləndirməyi mümkün sayırlar.

✍ **Banu**

# Hər obrazı sənət hadisəsinə çevrilən sənətkar

**"Alagöz", "Gecələr", "Lalələr", "Sənə də qalmaz", "Küçələrə su səpmişəm", "Evləri var", "Tələsin, insanlar" və s. ifa etdiyi mahnılar... Bu şəffaf, bulaq suyu kimi axıcı səsi unutmaq mümkün deyil. Bu səs sehri, cazibəsi ilə təkcə sahibinə deyil, həm də onun mənsub olduğu millətə, xalqa, məmləkətə daim şöhrət gətirərək tükənməz məhəbbət qazandırıb.**



İyunun 9-da SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, görkəmli müğənni Rəşid Behbudovun vəfatının 32 ili tamam olur. Böyük sənətkar Rəşid Behbudovun anım günündə onun həyat və fəaliyyətinin bəzi məqamlarına nəzər salaq. Səsi, sənəti, fitri istedadı ilə əbədiyaşarlıq qazanan Rəşid Behbudov 1915-ci ildə Tbilisidə xanəndə Məcid Behbudovun ailəsində dünyaya göz açıb.

Uşaq yaşlarından məktəb xorunda oxuyan R.Behbudov 1933-cü ildə Dəmir Yolu Texnikumuna qəbul olub. Təhsili dövründə tələbə özfəaliyyət orkestrində çalışıb. Hərbi xidmət zamanı ordu ansamblının, əsgərlik illərindən sonra isə Tbilisi estrada qruplarından birinin solisti olub.

Rəşid Behbudov 1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəylinin eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rola dəvət alıb. 1945-ci ildə efirə çıxan film tezliklə nəinki Azərbaycanda, bütün SSRİ məkanında böyük populyarlıq qazanıb. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə Rəşid Behbudov Stalin mükafatına layiq görülüb. Əsgər obrazını yaradan müğənninin şirin və könüloxşayan səsi hər bir dinləyicini valeh edib. Bundan sonra sevimli müğənninin səsini eşitmək arzusunda olanların sayı gündən-günə artıb. Azərbaycan kinosunun qızıl fonduna daxil olan həmin film bu gün də müvəffəqiyyətlə nümayiş etdirilir.

R.Behbudov uzun illər Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomima kimi müxtəlif janrlarını özündə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil edib və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olub. Hazırda bu teatr dahi sənətkarın adını daşıyır. İfaçılıqda xalq yaradıcılığını, vokal sənətini, estrada janrını sintez edən Rəşid Behbudov bənzərsiz səsi, zahiri görkəmi və aktyorluq istedadı ilə dinləyicinin və tamaşaçının qəlbini ovsunlayan ifaçılardandır.

Milli musiqi xəzinəmizin, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərinin ölkə hüdudlarından kənarda populyarlıq qazanması məhz Rəşid Behbudovun ifası sayəsində mümkün olub. Tofiq Quliyev, Fikrət Əmirov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Qara Qarayev, Arif Məlikov və digər görkəmli bəstəkarlarımızın yaradıcılığını onsuz təsəvvür etmək mümkün deyil.

Xalqını sonsuz məhəbbətlə sevən sənətkar sovet respublikaları ilə yanaşı, Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və digər ölkələrdə geniş konsert proqramları ilə Azərbaycan xalq mahnılarının və bəstəkar əsərlərinin populyarlaşmasında çox böyük rol oynayıb.

Yaradıcılığı sərhəd tanımayan Rəşid Behbudovun ifa etdiyi hər mahnı, yaratdığı hər obraz sənət hadisəsinə çevrilib, sənətkar dəfələrlə dövrünün ən yüksək mükafatlarına layiq görülüb. Rəşid Behbudovun sənəti Azərbaycan musiqi tarixinə ən şərəfli səhifələrdən biri kimi həkk olunub. SSRİ məkanında, eləcə də dünyanın ayrı-ayrı qitələrində milyonlarla dinləyicinin qəlbini fəth edən sənətkar getdiyi hər yerdə Azərbaycan musiqisinin, onun zəngin mədəniyyətinin yorulmaz təmsilçisi və təbliğatçısı idi. 1989-cu il iyunun 9-da Moskvada vəfat etmiş dahi sənətkar Bakıda Fəxri xiyabanda dəfn edilib.

# Qaydalara nəzarət



**İdman zallarında pandemiya ilə bağlı qaydalara əməl olunub-olunmamasına Gənclər və İdman Nazirliyi tərəfindən nəzarət olunacaq. Hafta.az xəbər verir ki, bunu Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Qabil Mehdiyev deyib.**

Q.Mehdiyev deyib ki, nazirlik tərəfindən hər hansı bir cəza tədbirinin görülməsi nəzərdə tutulmur: "Bu məsələ Daxili İşlər Nazirliyinin səlahiyyətindədir. Sadəcə, bizim nazirlik nəzarət edəcək. Həm idman federasiyalarına tövsiyə olunacaq ki, monitorinq aparsınlar, həm də nazirliyin yerli idarələrinə tapşırılacaq ki, hər biri öz rayonu ərazisində mütəmadi olaraq idman zallarında monitorinq aparsınlar.

Operativ Qərargahın məlum qərarından sonra nazirlik bir sıra tədbirlər həyata keçirib. Bütün federasiyalara tövsiyə xarakterli məktub göndərilib. Hər bir idman federasiyası inkişaf etdirdiyi idman növü üzrə klub və zallarına nəzarət etməlidir". O əlavə edib ki, federasiyalar vasitəsilə hər bir kluba elektron şəkildə təlimat kitabçası da göndəriləcək: "Bu kitabçada qeyd olunacaq ki, idman zallarında növbəlilik prinsipi ilə məşqlər keçirilsin. Sıxlıq müşahidə olunan idman zalında qrafik tutulmalıdır və insanlar ora növbəli şəkildə daxil olmalıdırlar. Hər kəs eyni vaxtda idman zalına gəlməməlidir. Bundan başqa COVID-19 pasportu da tələb olunur. Bu pasport iyunun 10-dan məşqlərə gələn idmançılara aiddir. Amma məşq zallarında olan təlimatçı və müəllimlərə iyulun birinə qədər möhlət verilib".

Q.Mehdiyev əlavə edib ki, idman zallarının rəhbərliyi də hər bir şəxsin COVID pasportunun və şəxsiyyət vəsiqəsinin surətini özündə saxlamalıdır.

## GÜNÜN FOTOSU



"Dostluq" kinoteatrı sökülür...

## Ermənistan beynəlxalq hüququ kobud şəkildə pozur

**Nikolay Katerinçuk,**
Ukrayna Avropa Partiyasının sədri, hüquq elmləri namizədi

Ermənistan mina xəritələrini Azərbaycana təqdim etməlidir. Əks halda, bu, beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Səh. 3

## STATİSTİKA



■ **Tennis tarixində ən uzun oyun 2010-cu ildə Uimbldon turnirində Con İzner və Nikol May arasında oynanılıb - 11 saat. Görüş 70:68 hesabı ilə başa çatıb.**

■ Tennis üzrə ən çox çempionluq yaşayan idmançı avstraliyalı Marqaret Kortdur. 64 dəfə çempionluq yaşayan xanım tennisçi 23 dəfə Avstraliyada, 18 dəfə ABŞ-da, 13 dəfə Fransada, 10 dəfə Uimbldonda bu adı qazanıb.

■ Dünyada ən çox qələbə qazanan tennisçi Serena Uilyamsdır. Onun hesabında 316 qələbə var.



Səh. 7

# Ermənilər əsirlərin gözlərini kor edib